Xalqın qəzeti!
# Xalq qəzeti
№ 164 (30568) 4 avqust 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## "Yaşıl" gələcək sivilizasiyanın xilası deməkdir



Səhifə ⇨ 8

## Erməni vandalizminin Qarabağda ekoloji terroru bəşəri cinayətdir


Səhifə ⇨ 8

## Zəngəzur dəhlizi və Jannanın arzuları...


Səhifə ⇨ 3

## Yaxın Şərq qiyamət müharibəsinə yaxınlaşır?


Səhifə ⇨ 5

## ABŞ-də seçkilər: Rəqiblər teledebata hazırlaşırlar


Səhifə ⇨ 11

## "Paris-2024": Yığmamız medallar uğrunda mübarizəni davam etdirir


Səhifə ⇨ 12

# Oğru elə bağırır ki...

## Azərbaycan öz torpağına niyə mina basdırmalıdır ki?

**Azərbaycan Ordusu 2020-ci ildə işğalçı Ermənistan silahlı qüvvələrini əzəli torpaqlarımızdan qovub çıxarsa və 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı xunta rejiminin varlığına son qoysa da, hayların ölkəmizə qarşı mina terroru hələ də davam etməkdədir. Minatəmizləmə prosesinin böyük zəhmət, uzun zaman və ciddi maliyyə resursu tələb etdiyini nəzərə alaraq təəssüflə deməliyik ki, mina terroru hələ xeyli müddət davam edəcək.**



Təəssüf doğuran digər hal isə odur ki, mina terroru təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilən ərazisində baş vermir. Eyni zamanda, 2024-cü il aprelin 19-da Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın iclasında qəbul edilmiş razılaşma əsasında ölkəmizə geri qaytarılmış Qazax rayonunun işğaldan azad edilmiş kəndlərində də yaşanır. Avqust ayının 2-də rayonun Qızılhacılı kəndində Ermənistan tərəfindən basdırılmış minalar partlayıb. Bu barədə Baş Prokurorluq, Dövlət Sərhəd Xidməti və Minatəmizləmə Agentliyinin (ANAMA) birgə məlumatında bildirilib. Hadisə nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu, gizir Əhədli Xəyal Ədinəqulu oğlu və Minatəmizləmə Agentliyinin əməkdaşı Mehdizadə Afiq Müşfiq oğlu minatəmizləmə işləri zamanı xidməti vəzifələrini icra edərkən piyada əleyhinə mina partlayışı nəticəsində ayaq nahiyəsindən xəsarət alıblar. Agentliyin digər əməkdaşları Ələkbərov Elçin İlham oğlu və Mirzəyev Yavər Gəray oğlu isə qəlpə yaraları alıblar. Xəsarət alan şəxslər ilkin tibbi yardım göstərilməklə dərhal xəstəxanaya çatdırılıblar.

*(ardı 3-cü səhifədə)*

# "Şahdəniz"– Azərbaycanın şahanə qaz yatağı

## *İlk yarımildə bu xəzinədən 14 milyard kubmetr "mavi yanacaq" və 2 milyon ton kondensat çıxarılıb*

**Azərbaycanın mötəbər enerji tərəfdaşı kimi mövqeyinin güclənməsinə, Avropanın enerji xəritəsinin zənginləşməsinə xidmət edən "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi uğurla davam etdirilir. "BP-Azərbaycan" şirkətinin məlumatına görə, 2024-cü ilin yanvar-iyun aylarında "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 1 milyard 251 milyon dollar, əsaslı məsrəflərinə isə 407 milyon dollar xərclənib. Həmin vəsaitin də böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf olunub.**

Məlumatda bildirilir ki, cari ilin birinci yarısında qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib. Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü təxminən 80,7 milyon (ildə 29,5 milyard kubmetr) kubmetr təşkil edir. Bu ilin birinci rübündə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" adlı platformalardan, ümumilikdə, təqribən 14 milyard kubmetr qaz və 2 milyon ton (təqribən 18 milyon barel) kondensat çıxarılıb.

*(ardı 7-ci səhifədə)*



# Ordumuz istənilən təxribatlara qarşı hər an hazırdır





**Avqustun 3-də Müdafiə Nazirliyində 2024-cü ilin birinci yarımilinin yekunlarına dair geniş tərkibli kollegiya iclası keçirilib.**

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə videobağlantı formatında keçirilən iclasda nazir müavinləri, qoşun (qüvvə) növü komandanları, baş idarə, idarə, xidmət və müstəqil şöbə rəisləri, hərbi birlik və birləşmə komandirləri, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri iştirak ediblər.

Əvvəlcə Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Havadarları tərəfindən silahlandırılan Ermənistanın regionda vəziyyəti gərginləşdirmək məqsədilə şərti sərhəddə törətdiyi təxribatlara qarşı bölmələrimiz tərəfindən həyata keçirilən təxirəsalınmaz tədbirlər və mövcud əməliyyat şəraiti təhlil edilib. Müdafiə naziri dövlət başçısının Ordu qarşısında qoyduğu tapşırıqları kollegiya iştirakçılarına çatdırıb.

Müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev cari ilin birinci yarımili ərzində qoşunların əməliyyat imkanlarının və qərargahların komanda idarəetmə qabiliyyətlərinin artırılması, mühəndis, kəşfiyyat və digər sahələrdə həyata keçirilən tədbirlər haqqında geniş məruzə ilə çıxış edib, ordu quruculuğu sahəsində aparılan uğurlu islahatların müsbət nəticəsindən danışıb.

Müdafiə nazirinin müavini - baş direktor Aqil Qurbanov cari ilin ilk altı ayı ərzində təminat sahəsində görülən işlər, qoşunların yeni silah və texnika ilə təchizatı, şəxsi heyətin psixoloji hazırlığı və hərbi təhsil sahəsində həyata keçirilən tədbirlər barədə məruzə edib. Baş direktor bildirib ki, dövlət başçısının müvafiq sərəncamlarına uyğun olaraq, hərbi təhsil sahəsində cəlbediciliyin artırılması istiqamətində görülən tədbirlər, o cümlədən respublikamızın 13 şəhərində yaradılmış 17 mərkəz vasitəsilə aparılan maarifləndirmə işləri nəticəsində Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə müraciətlərin sayı 5500-dən artıq olmuşdur.

Müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev bölmələrin döyüş qabiliyyətinin artırılması və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən tədbirlər barədə məruzə edib. Müasir silah və texnikanın cəlb edilməsi ilə keçirilən təlim və məşğələlərin intensivliyinin artırıldığı, bölmələrdə döyüş növbətçiliyi və digər xidməti-döyüş fəaliyyətlərin yüksək səviyyədə təşkil edildiyi bildirilib.

Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə HHQ bölmələrində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin illik hazırlıq planına uyğun daha keyfiyyətli keçirilməsinə xüsusi diqqət yetirildiyini vurğulayıblar.

İclasda Əlahiddə Ümumqoşun Ordu Komandanı general-mayor Kənan Seyidov və digər qoşun (qüvvə) növü komandanları da çıxış edərək birinci yarımilin yekunlarına dair yerinə yetirilən tədbirlər barədə ətraflı məlumat veriblər.

Müşavirənin yekununda çıxış edən müdafiə naziri Zakir Həsənov silahlanmaya yeni qəbul edilən müasir silah və texnikanın düzgün istismarı və döyüşdə effektiv tətbiqinin öyrənilməsinin vacibliyini qeyd edib. Müddətli həqiqi hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların adaptasiya prosesinə həssaslıqla yanaşılması, eləcə də sağlamlıqlarının daim diqqət mərkəzində saxlanılması ilə bağlı müvafiq göstərişlər verib.

Döyüş növbətçiliyi və gündəlik xidməti fəaliyyət zamanı yanğın və digər təhlükəsizlik qaydalarına əməl edilməsinə, həmçinin hərbi qulluqçuların psixoloji hazırlığına və maarifləndirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb. Müdafiə naziri növbəti tədris ili bağlı görülən işlərin plana uyğun şəkildə və keyfiyyətli icrasına dair əlavə göstərişlər verib. Azad edilmiş ərazilərdə görülən mühəndis tədbirləri ilə bağlı aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

Ali Baş Komandanın qeyd etdiyi fikirləri bir daha xatırladan general-polkovnik Z.Həsənov istənilən təxribatlara qarşı hər an hazır olmaq, heç kimin bizimlə diktat və ultimatum dilində danışa bilməməsi üçün Azərbaycan Ordusu döyüş hazırlığını və peşəkarlığını daim yüksək səviyyədə saxlamalıdır deyərək müşavirəyə yekun vurub.

# XİN-dən xəbərdarlıq

**Azərbaycan Xarici İşlər Nazirliyi Livana səfər edən və ya orada olan ölkə vətəndaşları ilə bağlı xəbərdarlıq yayıb.**



XİN-in bununla bağlı açıqlamasında deyilir:

"Livan Respublikasının yerləşdiyi regionda surətlə dəyişən təhlükəsizlik vəziyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə Livana səfər etməmək, həmin ölkədə yaşayan və ya səfərdə olan vətəndaşlara isə mümkün qədər qısa müddət ərzində oranı tərk etmək tövsiyə olunur.

Eyni zamanda, hazırda Livanda olan Azərbaycan vətəndaşlarından mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, əhalinin sıx toplaşdığı yerlərə getməmələri xahiş olunur".

**XQ**

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

**Vətən müharibəsində əldə edilmiş tarixi zəfərdən sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına (Dövlət Komissiyası) və aidiyyəti dövlət qurumlarına daxil olan çoxsaylı müraciətlərin təhlili göstərir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində I Qarabağ müharibəsində itkin düşmüş bir sıra şəxslər aidiyyəti üzrə qeydiyyatlardan kənarda qalmışlar. Buna səbəb I Qarabağ müharibəsindən sonrakı dövrdə itkin düşmüş bəzi şəxslərin ailə və yaxınlarının onların rəsmi qeydiyyata alınması üçün Dövlət Komissiyasına müraciət etməməsidir.**




2024-cü il avqustun 1-nə olan məlumata görə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3961 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 3953 nəfəri Birinci Qarabağ müharibəsində, 8 nəfəri isə Vətən müharibəsi və sonrakı dövrdə itkin düşmüş şəxslərdir. Müraciətlərin davam etməsi bunun yekun göstərici olmayacağını deməyə əsas verir.

Bunları nəzərə alaraq, Dövlət Komissiyası qeydiyyatdan kənarda qalmış və yaxınları ilə bağlı DNT nümunələri verməmiş itkin ailələrindən, o cümlədən itkin düşmüş şəxslərə dair məlumatı olan şəxslərdən xahiş edir ki, qısa müddət ərzində İşçi qrupu ilə əlaqə saxlayıb, lazımı məlumatları və DNT nümunələrini təqdim etsinlər.

**XQ**

# Laçında mina partlayıb



**Laçın rayonunda mina hadisəsi baş verib.**

Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətlərindən verilən məlumata görə, işğaldan azad edilmiş Laçın rayonunun Kalafalıq kəndi ərazisində 2024-cü il 3 avqust tarixində mina hadisəsi baş verib:

"Laçın rayonunun Vağazin kənd sakini 1960-cı il təvəllüdlü Süleymanov Əli Zeynalabdin oğlu həmin rayonun Kalafalıq kəndi ərazisində Sarıbaba adlı yüksəkliyin otlaq sahəsində heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hadisə nəticəsində Süleymanov Əli sol ayağından xəsarət alıb.

Faktla bağlı Laçın rayon prokurorluğunda araşdırma aparılır".

## Seçki xəbərləri



# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Avqustun 3-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın avqustun 1-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Bildirilib ki, daxil olan müraciətlər vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli, obyektiv araşdırıldıqdan sonra operativ şəkildə iclasa çıxarılıb.

Beynəlxalq müşahidə missiyası təmsilçilərinin, media subyektləri nümayəndələrinin, eləcə də maraqlı subyektlərin bilavasitə iştirakı ilə keçirilən iclasda müraciətlər geniş müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

İclasın sonunda qarşıdan gələn Milli Məclisə seçkilərlə bağlı müxtəlif məsələlər diqqətə çatdırılıb, namizədlərin irəli sürülməsi, qeydə alınması və müşahidəçilərin akkreditasiyasına dair statistik göstəricilər elan olunub, həmçinin cari məsələlərə baxılıb.

# "Seçki günü üçün yaddaş" kitabçası hazırlandı

**Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası (MSK) müxtəlif statuslu seçki iştirakçılarının maarifləndirilməsi proqramı çərçivəsində "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb.**




Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən "XQ"-yə bildiriblər ki, layihə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü prosedurları barədə məlumatlılığının artırılması və fəaliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədi daşıyır.

Nəşrdə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması, səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurların aydın, müfəssəl və əhatəli izahı verilib.

Seçki Məcəlləsinin müddəaları, Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası dairə və məntəqə seçki komissiyalarının üzvlərinə, müşahidəçilərə, habelə maraqlanan seçki subyektlərinə çatdırılıb.

"Seçki günü üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək olar.

**XQ**

## 881 nəfərin deputatlığa namizədliyi qeydə alınıb

Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfərin deputatlığa namizədliyi irəli sürülüb.

Bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 3-də keçirilən iclasında bildirib.



Deputatlığa namizədliyi irəli sürülənlərdən 1462 nəfərin namizədliyi təsdiqlənib, onlardan 1420 nəfərə imza vərəqi verilib. İndiyə qədər 1191 nəfər imza vərəqələrini qaytarıb, 881 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

## 99 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib

MSK-nın iclasında növbədənkənar parlament seçkiləri ilə əlaqədar qeydə alınan beynəlxalq müşahidəçilərin sayı da açıqlanıb. Komissiyanın sədri Məzahir Pənahov bildirib ki, müşahidəçi qismində iştirak etmək üçün indiyədək ümumilikdə 14 min 506 yerli müşahidəçi akkreditasiyadan keçib.

Onlardan 5477 nəfəri Mərkəzi Seçki Komissiyasında, 9029-u isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib.

M.Pənahov vurğulayıb ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün 8 beynəlxalq qurumdan və 26 ölkədən 99 müşahidəçi qeydə alınıb. Bunlar ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan 40 nəfər, MDB Parlamentlərarası Assambleyasından 36 nəfər, Müstəqil Dövlətlər Birliyindən 14 nəfər, Maldiv Mərkəzi Seçki Komissiyasından 3 nəfər, Gürcüstan Mərkəzi Seçki Komissiyasından 2 nəfər, Pakistan Mərkəzi Seçki Komissiyasından 2, Qazaxıstan Mərkəzi Seçki Komissiyasından 1, Monteneqro Seçki Komissiyasından isə 1 nəfərdir.

## Yerli müşahidəçilər – 14506 nəfər

Seçkilərlə əlaqədar qeydiyyatdan keçən yerli müşahidəçilərin sayına gəldikdə isə bildirilib ki, indiyə qədər, ümumilikdə, 14506 nəfər yerli müşahidəçi qeydiyyata alınıb. Onların 5477-si MSK-da, 9029-u dairə seçki komissiyalarında akkreditasiyadan keçib.

***Səxavət HƏMİD***
**XQ**

# Zəngəzur dəhlizi və Jannanın arzuları...

**Bizə Naxçıvana rahat gediş-gəlişi təmin edəcək, "Azərbaycandan Azərbaycana yol" kimi fəaliyyət göstərəcək dəhliz lazımdır. Sovet hökuməti dövründə Meğridən keçən dəmir yolu daim işləyib. İndi həmin yolun bərpası təkcə Azərbaycanın deyil, çoxlarının maraqları ilə üst-üstə düşür. Sadəcə olaraq, yaranmış yeni reallıq özünün yeni şərtlərini diktə edir. Bakı yüklərin və vətəndaşların Naxçıvana hərəkətinə sərhəd və gömrük nəzarətinin tətbiq olunmamasında israr edir. Məsələnin məhz bu cür qoyuluşundan xəbərdar olan rəsmi Tehran lap əvvəldən Zəngəzur dəhlizinə qarşı olduğunu gizlətməyib. Bu mövqeyi hərdən İran rejiminin müxtəlif səlahiyyət sahiblərinin dillərindən eşitmişik. Dörd il əvvəl 44 günlük müharibədə Rusiya silahlarının İran ərazisindən Ermənistana ötürülməsinin də şahidi olmuşuq. Qonşuya qarşı bu cür qeyri-səmimi davranışı ilə bağlı Cənubi Azərbaycandakı soydaşlarımızın etiraz səslərini də eşitmişik...**

Artıq tərəflərin hamısının Zəngəzur dəhlizinin açılması ilə əlaqədar mövqeləri ortadadır. Onların mövqelərindən və nə istəmələrindən asılı olmayaraq, Azərbaycan qarşısına qoyduğu planların reallaşdırmaq əzmindədir. Bunu "oyunçuların" hamısı bilir. Onu da bilirlər ki, bu gün Azərbaycanın siyasi iradəsi, hərbi gücü istədiyi hədəflərə çatmasına tam imkan verir.

* * *

"İran Zəngəzur dəhlizini beynəlxalq sərhədlərin və Ermənistanın ərazi bütövlüyünün pozulması kimi qəbul edir və müvafiq olaraq, belə bir dəhlizin İravanın maraqlarına cavab vermədiyini bəyan edir". **Bunu "Sputnik Ermənistan"a müsahibəsində iranşünas ekspert Janna Vardanyan** İran tərəfinin Ermənistanın



ərazi bütövlüyü və Zəngəzur dəhlizinin qəbuledilməzliyi ilə bağlı növbəti bəyanatını şərh edərkən deyib.

Oxuculara xatırladaq ki, bir neçə gün əvvəl Tehranda Nikol Paşinyanı qəbul edən İİR-in Ali rəhbəri Əli Xamenei Ermənistanın ərazi bütövlüyünün qorunub saxlanmasının zəruriliyini bir daha təsdiqləyib və ardınca bəyan edib ki, İran hələ də Zəngəzur dəhlizi ideyasının Ermənistanın maraqlarına cavab vermədiyinə inanır və buna qətiyyətlə yanaşır.

Tehran görüşündən sonra Ermənistanın baş nazirinin mətbuat xidməti məlumat yaydı ki, həmsöhbətlər "iki dövlətin və xalqın təraqqisi naminə isti və dostluq münasibətlərinin inkişafına yönəlmiş addımlarını davam etdirəcəklərinə əminliklərini ifadə ediblər". İlk baxışda İranın yeni rəhbərliyinin əvvəlki siyasi kursu davam etdirəcəyi təsəvvürü yaranır. Bu platformada baş verə biləcək mümkün mövqe dəyişikliyi isə hamıdan çox İrəvanı narahat edir. Bu da təbiidir. Çünki hayparəst kollektiv Qərb transmilli dəhlizin İran ərazisindən keçməsinə qarşıdır. Dəhlizin Rusiyanın nəzarətində olmasını heç arzulamayan Ermənistan hakimiyyəti isə hazırda yolunu azmış və körpünün üstündə dayanıb istiqaməti seçməkdə çətinlik çəkən səyyah durumuna düşüb. Sürətli silahlanma kursu götürmüş həmin "səyyahın" son davranışları onun müttəfiqlərində belə müəyyən şübhələr doğurur. Bu fonda son vaxtlar Ermənistan–Azərbaycan şərti sərhədində İrəvanın günahı ucbatından baş verən insidentlərin məqsədi aydınlaşır: Şərq–Qərb nəqliyyat layihələri Ermənistan ərazisindən keçməklə reallaşmayacaqsa, yəni Azərbaycan da buna qarşı çıxarsa, deməli, onu ram etmək üçün cəzalandırmaq, onların istədiyi vəziyyətə razılaşmasına nail olmaq. Qərbin bu məkrli niyyətlərindən Tehranın da xəbəri var. Mövcud durumda Bakının maraqlandıran bir sual də var: Azərbaycan torpaqlarının otuz ilə yaxın işğalda qalmasına susan, hərdən başdansovdu bəyanatlar verən Tehran, bölgədə vəziyyət yenidən gərginləşərsə, hansı mövqedə olacaq? Yenədəmi seyrçi mövqeyində qalacaq?




* * *

Qayıdaq iranşünas ekspert Janna Vardanyanın açıqlamasına. Daha doğrusu, onun reallıq kimi qələmə verməyə çalışdığı arzularına. Onun sözlərinə görə, Ermənistan və İranın yüksək rütbəli məmurların görüşlərindən sonra iki ölkənin yaydığı mesajlar bəzən bir-birindən fərqlənir. Buna o qədər də təəccüblənmədiyini bildirən Vardanyan İranın Zəngəzur dəhlizi məsələsinə münasibətinə gəlincə, ekspert Tehranın mövqeyinin 4 ildir dəyişməz qaldığını vurğulayır.

"İranın bu mövqedən çıxış etməsinin müxtəlif motivləri var. İndi İranın yeni prezidenti seçildiyi üçün Tehran bu mövqeyini yenidən təsdiqlədi. Bununla da onlar bir daha vurğulayırlar ki, prezidentin dəyişməsi bu mövqeyə heç bir şəkildə təsir göstərməyib. Bu, dövlət maraqlarına əsaslanan İranın bütün idarəetmə sisteminin mövqeyidir", – deyən Vardanyan buna əminliyini vurğulamağı da unutmayıb. Əlbəttə, İİR-də Prezidentin dəyişməsi ilə siyasi kursun, xüsusilə də, bölgəyə yönəlik xəttin dərhal dəyişəcəyini söyləmək sadəlövhlük olardı. İntəhası, İranın yeni Prezidenti Məsud Pezeşkian Nikol Paşinyanı rəsmi qəbulu zamanı Zəngəzur dəhlizinin İranın maraqlarına zidd olduğu barədə heç nə demədi. Bu cür yanlış müşahidələrdən yaranan səhv mülahizələr erməni ekspertləri səviyyəsində özünü göstərir. İranın rəsmi açıqlamalarında, sadəcə olaraq, Tehranın regionda beynəlxalq sərhədlərin dəyişdirilməsinin əleyhinə olduğu bildirilib.

Janna Vardanyan isə Xameneinin məlum bəyanatını "İranın mövqeyinin davamlılığının təsdiqi" kimi yozmağa çalışır. Əli Xameneinin bölgəyə xaricdən müdaxilə ilə bağlı açıqlamalarına gəlincə, erməni ekspert əmindir ki, İranın Ali rəhbəri bu zaman ABŞ və Avropa ölkələrini nəzərdə tutub.

"Ermənistanla İran arasında 2022-ci ildə ticarət həcmi ilk dəfə 500 milyon dolları, 2023-cü ildə isə 700 milyon dolları keçib. İki ölkənin müəyyən etdiyi hədəf 1 milyard, sonra isə 3 milyard dollardır. Bu templə yaxın illərdə ticarətin 1 milyard dollara çatdırılması realdır". İranşünas ekspert bu statistikanı 7 ay bundan əvvəl tirajlayıb. O zaman Vardanyan müxbirin "Cənubi Qafqazda regiondankənar digər ölkələrin İran və Ermənistanla bağlı hansı məqsədləri var?" –sualına belə cavab vermişdi: "Müxtəlif aktorlar Cənubi Qafqazda öz təsirlərini bərqərar etməyə çalışırlar. Amma heç kəs İran–Ermənistan münasibətlərinə xələl gətirə bilməz. İran Ermənistanın vacib qonşusudur".

İrəvan rəsmiləri dəfələrlə bəyan ediblər ki, nəqliyyat əlaqələrinin qarşılıqlı şəkildə açılması məsələsində "dəhliz məntiqi" olmamalıdır. Yəni Ermənistan hakimiyyəti yalnız qarşılıqlı faydalı şərtlərlə, öz ərazisindən keçəcək bütün kommunikasiyalara nəzarəti əlində saxlamaqla məsələləri müzakirə etməyə hazırdır.

Azərbaycan, qeyd etdiyimiz kimi, özünün Araz variantını ehtiyatda saxlayır. İİR rəhbərliyi bu barədə özünün rəsmi mövqeyini İbrahim Rəisinin may ayında Xudafərinə etdiyi səfərdə açıqlamışdı. Belə məlum olur ki, Məsud Pezeşkian da eyni mövqedədir. Nikol Paşinyanın isə milli maraqları ilə bağlı Tehrana apardığı iki layihə diqqətdən "yayındı". Üstəlik, bu dəfə İranın qolları onu əvvəlki kimi bağrına basmadı.

Kənardan görünən odur ki, həm siyasilər, həm də ekspertlər səviyyəsində belə yanaşmaları dövriyyəyə buraxmaqla Paşinyan administrasiyası ölkədə anti-İran əhval-ruhiyyəsi yaratmaq niyyətindədir. Yəni Paşinyanın komandası hesab edir ki, daxildə yaranacaq belə bir ab-hava onun Tehrandan uzaqlaşmaq qərarına haqq qazandıracaq və gələcəkdə, hətta, İrana qarşı çıxmasına zəmin yaradacaq. Erməni cəmiyyətinə təlqin edilən bu təbliğatda iqtidarın İranla hərbi-texniki əməkdaşlıqdan imtinaya haqq qazandırmaq məqsədi də var. Aydın məsələdir ki, bu planları İrəvana kollektiv Qərb diktə edir.

Düşünürük ki, bu gedişlə müstəqil düşüncəsi və siyasi iradəsi olmayan hayların lideri Tehran üçün də şübhəli və etibarsız tərəfdaşa çevrilməkdədir. Hələ onun üstüörtülü siyasəti ilə Tehranı özünün hansı oyunlarına alət etməyə çalışmasını da unutmaq olmaz. Ermənistanın rəhbərliyi bölgəyə sabitlik və inkişaf gətirəcək yollardan, dəhlizlərdən imtina etməklə sonda özünün Qərbin tapdağı altında qala biləcəyi kimi fəlakətli perspektivini də gərək yadından çıxarmasın.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı**

**– Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan məhz Ermənistandır. Sadəcə, İrəvan dəhlizin açılmasının onlara faydalı olacağını başa düşmək istəmir. Ermənistanın rəsmi dairələri bunu açıq bildirməsələr də, hər halda məsələnin həllinə maraq göstərmirlər. Ermənistan ictimaiyyətində isə dəhlizlə bağlı ciddi fikir ayrılıqları var. Ancaq iş burasındadır ki, bu dəhliz açılarsa, daha çox fayda görənlərdən biri Ermənistan olacaq. Dəhlizin mövcud olması Ermənistan büdcəsinə heç bir investisiya qoyulmadan, əlavə xərc çəkilmədən böyük vəsaitlərin daxil olmasına gətirib çıxaracaq. Zəngəzur təkcə Azərbaycanla Naxçıvanı birləşdirən nəqliyyat qovşağı olmayacaq. Transmilli layihənin bir qoluna çevriləcək dəhlizin sayəsində onlarca ölkənin iqtisadiyyatı dirçələcək, bir-biri ilə əməkdaşlığın tam yeni və gəlirli perspektivləri ortaya çıxacaq. Əslində, Azərbaycanın Naxçıvanla birləşmək üçün alternativ variantları var. Əgər Ermənistan dəhlizin açılmasına razılıq verməsə, Azərbaycan İran ərazisindən avtomobil və dəmir yolu xətti variantını işə salacaq. Bakı artıq bu istiqamətdə də tikinti işlərini davam etdirir. Sonda uduzan yenə Ermənistan olacaq.**

**Vaxtilə Azərbaycan torpaqlarının işğalda saxlanılması neft və qaz kəmərlərinin Ermənistan ərazisindən keçməsinə mane oldu. Azərbaycan indi də alternativ variantını işə salsa, artıq Zəngəzur dəhlizinin ziyanını ilk növbədə Ermənistan çəkəcək. Ermənistan əhalisi ölkənin gələcək perspektivini görmədiyi üçün durmadan ölkədən köçür. İrəvan layihəyə razılıq verməsə, hazırkı ağır vəziyyət daha da kəskinləşəcək. Ermənistandan yenə də kütləvi köç başlayacaq.**

# Oğru elə bağırır ki...

**(əvvəli 1-ci səhifədə)**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) verilən məlumata görə isə avqustun 2-də mina partlayışından xəsarət alan 4 nəfər Qazax Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə çatdırılıb. Bildirilib ki, mina partlayışı nəticəsində ayaq nahiyəsindən xəsarətlər alanlara zəruri tibbi xidmət göstərildikdən sonra onlar tibb müəssisəsinin reanimasiya şöbəsinə yerləşdiriliblər. Hər iki yaralının vəziyyəti orta-ağır qiymətləndirilir. Bədənin müxtəlif nahiyələrində çoxsaylı qəlpə yaraları diaqnozu qoyulan digər iki 2 nəfərə – 1989 və 2002-ci il təvəllüdlü şəxslərə isə təcili tibbi yardım şöbəsində ilkin tibbi yardım göstərilib, vəziyyətləri stabil qiymətləndirildiyi üçün xəstəxanadan təxliyə ediliblər.

Şəmkir hərbi və Qazax rayon prokurorluğunun əməkdaşları tərəfindən prokuror-kriminalistin iştirakı ilə hadisə yeri müayinə olunub və hazırda digər zəruri prosessual hərəkətlər icra edilir. Faktla bağlı prokurorluq orqanlarında araşdırma aparılır.

Xarici İşlər Nazirliyinin yaydığı məlumatda isə bildirilib ki, Ermənistan tərəfindən yerləşdirilmiş minalar Azərbaycan vətəndaşlarının təhlükəsizliyini və rifahını təhdid edir. Qeyd olunub ki, 2020-ci il müharibəsi başa çatdıqdan sonra mina qurbanlarının ümumi sayı 376-ya çatıb, onlardan 69-u həlak olub. "Mina qurbanlarının sayı artır. Bu təhlükənin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyətin təsirli tədbirlər görməsinin zəruri olduğunu bir daha vurğulayırıq" – deyə XİN-in məlumatında bildirilib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Səbinə Əliyeva da Qazax rayonunun Qızılhacılı kəndində Ermənistan tərəfindən basdırılmış minanın partlaması nəticəsində xidməti vəzifələrini icra edən üç mülki şəxsin və bir hərbi qulluqçunun yaralanmasına münasibət bildirib. Ombudsman aparatının yaydığı məlumatda bildirilib: "Qeyd etmək istərdik ki, həmin kənd Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası ilə bağlı cari il aprelin 19-da əldə olunmuş razılaşma əsasında ölkəmizə geri qaytarılıb. Göründüyü kimi, Ermənistan hətta delimitasiyadan sonra belə mina terroru siyasətini davam etdirir, əhalinin həyat və sağlamlığına təhlükə yaradan əməllərindən əl çəkmir. Bir daha bildiririk ki, ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz qayıdışına, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına, eləcə də sərhədlərin delimitasiyası prosesinə və bölgədə aparılan bərpa-quruculuq işlərinə ciddi manеə törədir. Beynəlxalq ictimaiyyət dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi istiqamətində Ermənistana təsir göstərməli, bu ölkənin mina terroruna səssiz qalmamalıdır".




Maraqlıdır ki, özünün mənfur əməlləri ni hər zaman bizim adımıza çıxan, "adımı sənə qoyum, səni yana-yana qoyum" prinsipi ilə hərəkət edən Ermənistan tərəfi bu dəfə də ənənəsinə sadiq qalaraq, avqustun 2-də baş verən mina partlaması hadisəsinə görə, ölkəmizi ittiham etmək yolunu tutub. Ölkənin "Nyus.am" saytında bununla bağlı dərc olunmuş "Azərbaycanın Ermənistana qarşı növbəti təxribatı və ittihamları" sərlövhəli xəbərdə bildirilib ki, söhbət sərhədin hər iki tərəfin minalar yerləşdirdiyi hissəsindən gedir. Qeyd edilir ki, indi Azərbaycan bunu az qala kəndə Ermənistan tərəfindən yerləşdirilmiş minalar kimi təqdim edərək, hadisədən təxribat və ittihamlar üçün (?) istifadə edir.

Əlbəttə, biz Ermənistanın rəsmi şəxsləri kimi media orqanlarının da ağa qara dedemələrinə öyrəşmişik. Haylar indiyədək ölkəmizi müxtəlif məsələlərdə ittiham etmişdilər. Bura Vətən müharibəsi dövründə Azərbaycanın, guya, xaricdən muzdlular dəvət etməsi, mülki əhalini, yaşayış və infrastruktur obyektlərini atəşə tutması kimi yalanlar daxil idi. İndi isə ermənilər bizi Bakıda hansısa "hərbi əsirlərin" saxlanılmasında suçlayırlar. Biz, bütövlükdə, istər işğalın davam etdiyi onilliklər ərzində, istərsə də müharibədən sonrakı dövrdə erməni yalanlarına öyrəşmişik. Ancaq Ermənistanın ərazimizdə yerləşdirdiyi minaların Azərbaycanın, necə deyərlər, ayağına yazılması ilk dəfədir ki, baş verir. Bu isə erməni yalanlarının sərhəd tanımadığının daha bir təsdiqi kimi qəbul olunmalıdır.

Halbuki, Azərbaycan Ermənistanın məqsədyönlü işğalçılıq siyasəti nəticəsində dünyada minalar və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. İlkin qiymətləndirmələrə görə, 30 ilə yaxın davam edən işğal dövründə torpaqlarımıza 1,5 milyondan artıq mina basdırılıb. Piyadalar əleyhinə minaların qadağan olunması uğrunda beynəlxalq kampaniyanın kasetli silahlar koalisiyasının məlumatına görə, Azərbaycan dünyanın mina və partlamamış hərbi sursatlarla ən çox çirklənməyə məruz qalmış 10 ölkəsindən biridir. Bunun bir səbəbi də bütün hərbi əməliyyatların Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində aparılması ilə bağlıdır. Ermənistan ərazisində mina partlayışlarının olmaması bir daha sübut edir ki, biz heç zaman onların ərazisinə keçməmişik.

Ermənistan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra da Laçın yolundan istifadə edərək ərazilərimizə minalar yerləşdirməyə davam edirdi. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı bir daha təsdiqləyir. Lokal xarakterli antiterror tədbirlərindən sonra separatçı xunta rejiminin 2023-cü ilin sentyabrınadək nəzarətində olan Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması təhdidin miqyasını sübut edən digər bir faktdır.

Yeri gəlmişkən, qeyd edək ki, 2023-cü il sentyabrın 19-da səhər saatlarında Xocavənd rayonu ərazisində ikisi mülki şəxs olmaqla 6 Azərbaycan vətəndaşı mina terrorunun qurbanı oldu. Elə həmin gün Azərbaycan lokal xarakterli antiterror tədbirlərini həyata keçirməyə başladı. Bunu qeyd etməkdə məqsədimiz separatçı xunta rejiminin varlığına son qoyulması üçün antiterror tədbirlərinin başlanmasının mina terroru ilə birbaşa əlaqəsinin olduğunu göstərməkdir.

İndi isə məlum olur ki, Hayastan Qazax rayonu istiqamətində də ərazilərimizi minalarla çirkləndirib. Bu cür əməllərə imza atan bir ölkənin media subyektinin Azərbaycanı mina basdırılmasında ittiham etməsi isə nonsensdir. Onların yalanı xarici havadarlarının dəstəyi sayəsində ayaq tuta bilər, amma heç bir halda yox!

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 360** **Bakı şəhəri, 25 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilərək bu Qərarın 1.1 – 1.12-ci bəndlərində nəzərdə tutulan orqanların (qurumların) informasiya sistemlərindən (ehtiyatlarından) "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanunu ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar zəruri olan aşağıdakı məlumatların elektron qaydada sorğu əsasında təxirə salınmadan almaq hüququ təmin edilsin:

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə:

1.1.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportunda qeyd edilən eyniləşdirmə məlumatları (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, ümumvətəndaş pasportunun nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN) və fotoşəkli);

1.1.2. Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsində qeyd edilən eyniləşdirmə məlumatları (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verilmə tarixi, FİN-i və fotoşəkli);

1.1.3. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, valideynlərinin soyadı və adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer);

1.1.4. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer, ailə vəziyyəti barədə məlumat və fotoşəkli);

1.1.5. şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı barədə məlumatlar;

1.1.6. axtarışda olan şəxslər barədə məlumatlar;

1.1.7. cinayət törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən, məhkum olunmuş, inzibati qaydada həbs edilmiş şəxslərin mərkəzləşdirilmiş fərdi uçotlarının əməliyyat - sorğu kartotekalarında mövcud olan məlumatları;

1.1.8. hüquqi və fiziki şəxslərə məxsus, dövlət qeydiyyatı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən aparılan mexaniki nəqliyyat vasitələri barədə məlumatlar (nəqliyyat vasitəsinin növü, markası, modeli, tipi, dövlət qeydiyyat nömrəsi, sahibinin soyadı, adı, atasının adı və şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i);

1.2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti üzrə:

1.2.1. ölkəyə gələn və ölkədən gedən şəxslərin sərhədkeçmə nəzarəti və qeydiyyatı barədə məlumatları;

1.3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üzrə:

1.3.1. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə verilməsi, müvəqqəti olma müddətinin uzadılması barədə məlumatlar;

1.3.2. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrinin verilməsi barədə məlumatlar;

1.3.3. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayan, habelə müvəqqəti olma müddəti uzadılmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı barədə məlumatlar;

1.3.4. Azərbaycan Respublikasına gəlişi qadağan edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə eyniləşdirmə məlumatları (soyadı, adı, doğulduğu yer və tarix, vətəndaşlığı, sənədin növü, seriyası və nömrəsi);

1.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə:

1.4.1. şəxsin (Azərbaycan Respublikasının vətəndaşlarının, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilən eyniləşdirmə məlumatları (soyadı (əvvəlki soyadları), adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, fotoşəkli, doğulduğu yer və tarix, cinsi, vətəndaşlığı, ailə vəziyyəti, ölüm tarixi);

1.4.2. ərin (arvadın) FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.3. valideynlərin FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.4. uşağın FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.5. notariat qaydasında təsdiq edilmiş aşağıdakı müqavilələr barədə məlumatlar:

1.4.5.1. daşınmaz əmlakın alqı-satqısı üzrə müqavilələr, habelə torpağın icarə hüquqlarının alqı-satqısı üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.2. icarə müqavilələri barədə məlumatlar;

1.4.5.3. kredit müqavilələri barədə məlumatlar;

1.4.5.4. ipoteka müqavilələri barədə məlumatlar;

1.4.5.5. girov müqavilələri, o cümlədən pul vəsaitlərinin girovu müqavilələri barədə məlumatlar;

1.4.5.6. kirayə müqavilələri barədə məlumatlar;

1.4.5.7. borc müqavilələri barədə məlumatlar;

1.4.5.8. əmlak bölgüsü üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.9. pulun bağışlanmasına dair müqavilələr barədə məlumatlar;

1.4.5.10. beh müqavilələri barədə məlumatlar;

1.4.5.11. qiymətli kağızların özgəninkiləşdirilməsi üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.12. nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.13. hüquqi şəxsin paylarının alqı-satqısı və bağışlanması haqqında, habelə təsis edilməsi haqqında müqavilələr barədə məlumatlar;

1.4.5.14. hüquqi şəxsin yaradılması ilə əlaqədar notariat qaydasında təsdiq edilmiş etibarnamələr (müqavilələr) barədə məlumatlar;

1.4.5.15. elektron imzanın alınması məqsədilə notariat qaydasında təsdiq edilmiş etibarnamələr barədə məlumatlar;

1.4.6. hüquqi şəxsin təsis edilməsi zamanı notariat qaydasında təsdiq edilmiş sənədlər barədə məlumatlar;

1.4.7. pul vəsaitlərinin, qiymətli kağızların, bank və ya qiymətli kağız hesablarının idarə edilməsi ilə əlaqədar notariat əməliyyatları barədə məlumatlar;

1.5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə:

1.5.1. rezident və qeyri-rezident şəxslər tərəfindən valyuta sərvətləri və milli valyutanın gömrük sərhədindən keçirilməsinə, eləcə də malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə əlaqədar valyuta əməliyyatlarına nəzarət barədə məlumatlar;

1.5.2. gömrük orqanları tərəfindən valyuta nəzarəti həyata keçirilərkən aşkar edilmiş hüquq pozuntuları barədə məlumatlar;

1.5.3. fiziki və hüquqi şəxslərin idxal və ixrac əməliyyatlarına dair gömrük bəyannamələri barədə məlumatlar;

1.6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə:

1.6.1. hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestri üzrə məlumatlar (hüququ rəsmiləşdirilən şəxsin (o cümlədən əvvəlki hüquq sahiblərinin) soyadı, adı, atasının adı (hüquqi şəxs olduqda tam adı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra – VÖEN), hüququn növü, daşınmaz əmlakın növü, mülkiyyət növü, qeydiyyat tarixi, ümumi sahəsi və reyestr nömrəsi);

1.6.2. daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının məhdudlaşdırılması (servitut, uzufrukt, ipoteka, etibarlı idarəetmə, icarə, istifadə, lizinq, daşınmaz əmlakın üzərinə həbs qoyulması, daşınmaz əmlaka dair tələblər), məhdudiyyətin qüvvədə olduğu müddət, xeyrinə hüquq məhdudlaşdırılmış şəxslər, məhdudiyyətin yaranmasına əsas olan sənədin adı, onun qüvvədəolma tarixi barədə məlumatlar;

1.6.3. vergi ödəyicilərinin məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, FİN-i, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin adı, keçmiş adı, fiziki və hüquqi şəxsin VÖEN-i və onun verilmə tarixi, təşkilati-hüquqi forması, faktiki və hüquqi ünvanı, əlaqə vasitələri, dövlət qeydiyyatını aparan orqan (qurum), nizamnamə kapitalının valyutası və məbləği, mülkiyyət növü, statusu, ləğv edilmə tarixi, sorğu edilən tarixə barəsində cinayət işinin olub-olmaması, vergi borcları və səyyar vergi yoxlamaları barədə məlumatlar);

1.6.4. vergi ödəyicilərinin əsas və digər fəaliyyət növlərinin adları barədə məlumatlar;

1.6.5. hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin tam adı, fiziki və hüquqi şəxsin VÖEN-i, təsisçi olduğu tarixlər) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar;

1.6.6. vergi ödəyicisi olan hüquqi şəxsin qanuni təmsilçisinin (rəhbərinin) məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı hüquqi şəxsin tam adı, VÖEN-i, qanuni təmsilçi (rəhbər) kimi fəaliyyətinin başladığı və bitdiyi tarix);

1.6.7. vergi ödəyicilərinin təsisçisi olduğu hüquqi şəxsin (şəxslərin) məlumatları (tam adı, VÖEN-i, qeydiyyat ölkəsi, hüquqi ünvanı, mülkiyyət növü, ləğv olunma tarixi);

1.6.8. vergi ödəyicilərinin təsisçisi olduğu hüquqi şəxsin əsas və digər fəaliyyət növləri barədə məlumatlar;

1.6.9. müşahidə şurası üzvlərinin məlumatları (soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, müşahidə şurasının üzvü olduğu tarixlər);

1.6.10. vergi ödəyicilərinin hesabları barədə məlumatlar;

1.6.11. vergi ödəyicilərinin gəlirləri, xərcləri, mənfəəti (zərəri) və aktivləri barədə məlumatlar;

1.6.12. vergi ödəyicilərinin vergi hesablamaları, ödənişləri və artıq ödəmələr barədə məlumatlar;

1.6.13. təqdim edilmiş bəyannamə məlumatlarına əsasən muzdlu işçilərin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, vəzifəsi və onların gəlirləri barədə məlumatlar;

1.6.14. vergi ödəyiciləri tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə hesablanmış vergilər barədə məlumatlar;

1.6.15. səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirləri zamanı aşkar olunan vergi qanunvericiliyinin pozulması, riskli vergi ödəyiciləri və əmtəəsiz əməliyyatlar barədə məlumatlar;

1.6.16. elektron qaimə-fakturalar və alış aktları barədə təfsilatlı məlumatlar;

1.6.17. ƏDV-nin depozit hesabı üzrə saldo və aparılan əməliyyatlar barədə məlumatlar;

1.6.18. dövlət satınalma müqavilələri barədə məlumatlar;

1.7. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınmış müvafiq olaraq kiçikhəcmli gəmilər və daşınar tarix və mədəniyyət abidələri üzrə:

1.7.1. daşınar əmlakın adı və növü barədə məlumatlar;

1.7.2. daşınar əmlakın mülkiyyətçisi və onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər barədə məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin tam adı, VÖEN-i və qeydiyyat ölkəsi);

1.7.3. daşınar əmlaka mülkiyyət hüququnu və digər əşya hüquqlarını təsdiq edən sənədlər barədə məlumatlar;

1.7.4. daşınar əmlak üzərində hüquqların məhdudlaşdırılmasını, başqasına keçməsini və bu hüquqlara xitam verilməsini təsdiq edən sənədlər barədə məlumatlar;

1.8. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi üzrə:

1.8.1. dövlət qulluqçusunun soyadı, adı, atasının adı və FİN-i;

1.8.2. dövlət qulluqçusunun işlədiyi dövlət orqanının və tutduğu vəzifənin adı, əmək fəaliyyətinin başlama və bitmə tarixi və stajı;

1.9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə:

1.9.1. şəxsin işəgötürənlərinin adı və VÖEN-i, aylıq əməkhaqları, vəzifələri (peşələri), habelə işçi ilə əmək müqaviləsinin növü, bağlanıldığı və xitam verildiyi tarixlər, müddətli əmək müqaviləsinin müddətinin bitmə tarixi, əsas və əlavə iş yeri olması barədə qeyd və əməyin ödənilmə forması barədə məlumatlar;

1.10. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi üzrə:

1.10.1. abunəçinin FİN-i və ya VÖEN-i əsasında müəyyən edilən telefon nömrəsi (məftilli olduğu zaman ünvanı), sellülar (mobil) və simsiz telefon nömrələri;

1.10.2. abunəçinin telefon (məftilli olduğu zaman ünvanı), sellülar (mobil), simsiz telefon nömrəsi əsasında müəyyən edilən FİN-i və ya VÖEN-i;

1.11. Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:

1.11.1. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 16-1.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilmiş məlumatlar.

1.12. Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə:

1.12.1. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və predikativ cinayətlərə dair işlər üzrə siyahısı Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi məlumatlar.

**2.** Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar bu Qərarın 1-ci hissəsində qeyd olunan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq əldə edilir.

2.2. bu Qərarın 1-ci hissəsinin icrasının təmin edilməsi ilə əlaqədar xərclər Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin büdcəsi hesabına maliyyələşdirilir.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) qeyd olunan məlumatlarının toplandığı informasiya sistemlərinin (ehtiyatlarının) Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasını təmin etsin.

**4.** Bu Qərarın 1.1-1.10-cu bəndlərində qeyd olunan dövlət orqanları (qurumları) fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

**5.** "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin nəzarət orqanlarının və müəyyən edilmiş digər orqanların (qurumların) informasiya resurslarından istifadəyə buraxılış dərəcəsinin (alınan məlumatların dairəsinin) müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 sentyabr tarixli 359 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1093 (Cild I) ləğv edilsin.

**6.** Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 365** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

**"Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 366** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 460; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 may tarixli 291 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"na "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üzrə" bölməsindən sonra aşağıdakı məzmunda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə" bölməsi əlavə edilsin:

| **Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə** | | | |
|---|---|---|---|
| 1. | ADA Universiteti | fəlsəfə doktoru üzrə | - |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 367** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

**"Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 537 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 33 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına, bələdiyyələrə və nizamnamələrinə əsasən məişət zorakılığının qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyətinə dəstək göstərilməsi tövsiyə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 371** **Bakı şəhəri, 1 avqust 2024-cü il**

**"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) təhsilin pillələri üzrə tədris və təlim-tərbiyə prosesinin aşağıdakı qaydada təşkili təmin edilsin:

1.1. ümumi təhsil pilləsi üzrə - 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili;

1.2. peşə, orta ixtisas və ali təhsil pillələri üzrə - Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təhsil.

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın 1.1-ci bəndi nəzərə alınmaqla təhsil proqramlarının təhsilalanlar tərəfindən tam mənimsənilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

Türküstanı gəzə-gəzə...

# Surxandəryada buddizmin izləri – Fayaztəpə və Qaratəpə

**II YAZI**

Böyük İpək Yolunun Qərb və Şərq arasında beynəlxalq münasibətlərin yaranmasında, xalqların bir-birinin mədəniyyətlərindən bəhrələnməsində, ticarət əlaqələri qurmasında müstəsna rolu olub. Məhz Böyük İpək Yolu vasitəsilə buddizm Hindistandan Özbəkistana, oradan isə Çin, Koreya və Yaponiyaya yayılıb.

XIX əsrin ortalarında fransalı filoloq Stanislas Jülyen eramızın 630-cu illərində Hindiquşa və Amudərya sahillərinə səyahət edən buddist rahib Süan-tzyanın kitabını fransız dilinə tərcümə edib. Bu kitabda çiçəklənən Soqd diyarından, onun paytaxtı Səmərqənd şəhərindən, Şaşdan (indiki Daşkənd), Fərqanə vadisindən, Ustruşan, Keş və Baktriyadan söhbət açılır.

Məlum olur ki, VII əsrin sonlarında müsəlmançılığın qəbul edilməsinə qədər bu yerlərdə buddizm öz çiçəklənmə dövrünü yaşayıb. Süan-tzyan qədim Tarmitdə (indiki Termez) onlarla monastırın, minlərlə buddist rahibin, Budda heykəllərinin olduğundan xəbər verib.

Surxandəryadakı buddizm izlərindən biri də eramızın I-III əsrlərinə aid edilən Fayaztəpə buddist məbəd kompleksidir. Kompleks köhnə Termez xərabələrinin şimal-qərbində, Amudərya çayı ilə qədim karvan yolunun arasında yerləşir. Bu abidə qazıntılar zamanı arxeoloqlara böyük köməyi dəymiş Surxandərya diyarşünaslıq muzeyinin direktoru R.F.Fayazovun şərəfinə Fayaztəpə adlandırılıb.

Fayaztəpə üç monumental tikilidən ibarətdir. Mərkəzi hissədə məbəd, şimal-qərbdə Vixara monastırı, cənub-şərq hissədə isə təsərrüfat binaları yerləşir. Kompleksin ümumi sahəsi 1,5 kvadratkilometrdir. Uzunluğu 117, eni 34 metr olan binanın tikintisində çiy kərpiclərdən istifadə olunub. Binanın üstü gümbəzlə örtülüb. Divarları müxtəlif rəngli şəkillərlə bəzədilmiş məbəddə Buddanın heykəli ucalır. Bir vaxtlar məbədin divarları boyu Buddaya həsr olunan, hündürlüyü 4 metrə çatan heykəllər var imiş. Heykəllər ilkin olaraq qırmızı rəngdə olsa da sonradan qızılı rəngə boyanıb.

Məbədin cənub hissəsində Buddanın qırmızı geyimdə təsviri qorunub saxlanılıb. Buddanın arxaya yığılmış saçları, gözəl siması diqqəti cəlb edir. Məbədin şərq divarında divarüstü rəsmlərin izləri görünür. Burada tapılan saxsı parçalarının birinin üstündə üzlərini Buddaya tutan iki kişi təsvir olunub. Belə tapıntılar onu deməyə əsas verir ki, Kuşan səltənəti dövründə Baktriyada Buddaya sitayiş ediblər. Buradakı heykəllərin çoxu gil və samandan hazırlanıb, üstləri gipslə örtülüb.

Məbədin qapısı yanında nadir sənət əsəri – Triada aşkar olunub. Triadanın mərkəzində bodxa adlanan müqəddəs ağacın budağı üstündə oturan Budda, hər iki tərəfində isə ona sitayiş edən rahiblər əks olunub. Məbədin həyətində divar boyu rahiblərin hücrələri, zəvvarlar üçün yataqxanalar yerləşib. Həyətdəki böyük salonda divarlar rəngbərəng şəkillərlə bəzədilib. Burada mərmər parçalarından düzəldilən, suyu içməli olan gölməçə də var. Su sanki şirin ağzından tökülür. Şir obrazı Küşan dövrü sənətinə aiddir və güclü, əzəmətli Buddanı əks etdirir.





Abidənin arxitektura-tarixi strukturunun təhlili göstərir ki, o, vahid bir plan əsasında tikilib. Fayaztəpədəki heykəllərin Hindistan buddizm təsviri sənəti ilə birbaşa oxşarlığının olmaması sübut edir ki, onların memarı Qandxara buddist memarlıq sənəti ənənələrinə vaqif olan baktriyalı bir sənətkardır.

Açıq səma altında muzeyə çevrilən Fayaztəpədə uzun illər özbək və yapon alimləri tədqiqat işləri aparıblar. Maraqlıdır ki, müsəlmanlar Həcc ziyarətinə getdiklər kimi, yaponlar da Fayaztəpəyə ziyarətə gəlirlər.

Qaratəpə isə Amudərya çayının sahilində, köhnə Termezin şimal–qərbində üç təpə üzərində salınmış buddist məbədidir. 1928-ci ildə sənətşünas alim A.Strelkov bu ərazidə mağaralar aşkar edib. Mağaraların ağzı qum və kərpic qırıntıları ilə bağlı olub. 1961-ci ildə burada geniş qazıntı işlərinə başlanılıb.

Mağaralar açıldıqca sınıq barelyeflər, saxsı parçaları, metal pullar aşkar olunub. Sübut edilib ki, Qaratəpədə böyük buddist məbədlər sistemi mövcüd olub. Eramızın II əsrinə aid olan məbədlərin daxili hissəsi tematik şəkillərlə, ağac və gil heykəllərlə bəzədilib. Tapılan bütün əşyalar, heykəllər, rəngli naxışlar onların məhz Baktriya bədii sənət məktəbinə aid olduğunu göstərir. Divarlarda qədim Baktriya, fars, soqd, Suriya, ərəb dillərində yazılara rast gəlinir.

II-III əsrlərdə Qaratəpə özünün çiçəklənmə dövrünü yaşayıb. IV əsrdə Sasanilər Kuşan dövləti üzərində qələbə çaldıqdan sonra məbədlərin çoxu fəaliyyətini dayandırıb, monastır tənəzzülə uğrayıb. Mağaraların ağzı qum və kərpiclə bağlanıb, bəziləri isə qəbir kimi istifadə olunub. IV-V əsrlərdə monastırı yeniləməyə cəhd göstərilib, bura Hindistandan zəvvarlar gəlməyə başlayıb. Ərəb istilasından sonra isə qeyri-müsəlman obyektlərinin üzərinə qoyulan vergilər Mərkəzi Asiyada, həmçinin Termezdə buddist məbədlərinin bağlanması ilə nəticələnib. Termez monastırlarında yaşayan rahiblər Kəşmirə gedib, qalan əhali isə ərəblərə ram olaraq İslam dinini qəbul edib.

***Qulu KƏNGƏRLİ***
***XQ-nin xüsusi müxbiri***

**Termez**

# Yaxın Şərq qiyamət müharibəsinə yaxınlaşır?



**Dünya narahatdır. HƏMAS lideri İsmayıl Haniyənin Tehranda öldürülməsi Yaxın Şərqi regional müharibənin astanasına gətirib. İran qisas alacağına söz verib, ancaq hücumun nə vaxt və hansı miqyasda olacağı bilinmir. İsrail bütün ssenarilərə hazır olduğunu açıqlayıb. ABŞ və Böyük Britaniya Tel-Əvivi qorumaq üçün regiona hərbi gəmilərini göndərib. Bir çox ölkənin vətəndaşlarını Livana səfərdən imtina etməyə çağırması bölgədə onsuz da mürəkkəb olan vəziyyətin daha təhlükəli istiqamətdə inkişafını göstərir.**

İndi hamını bir sual düşündürür: İsmayıl Haniyənin öldürülməsi regionda böyük müharibənin başlanmasına səbəb ola bilərmi? Müharibə barədə proqnozlar müxtəlifdir. Məsələn, “The Guardian” qəzetinin Qüdsdəki müxbiri Bethan McKernan düşünür ki, HƏMAS-ın gücü azalsa da, bölgədəki digər qruplar İsrailə cavab verə bilərlər. Müəllif yazır: “Oktyabrın 7-də Fələstin qruplaşmasının hücumundan sonra İsrailin Baş naziri Benyamin Netanyahu Qəzza zolağının hüdudlarından kənardakılar da daxil olmaqla, HƏMAS rəhbərliyinin “ölüm üçün işarələndiyini” demişdi. Lakin Haniyənin öldürülmə vaxtı və yeri o deməkdir ki, bu, artıq regional müharibəyə çevrilmək ərəfəsində olan münaqişədə sabitliyi pozan başqa bir amil ola bilər”. Müəllif düşünür ki, hava hücumlarının və hədəflənmiş qətllərin artması zamanı səhv addımlar riskləri getdikcə artırır.

Analitik yazır ki, HƏMAS-ın siyasi büro rəhbərinin öldürülməsi, görünür, İsrail üçün böyük bir mənəvi dəstək, Netanyahu üçün bir “nemət” və Fələstin qrupu üçün isə ağır zərbədir: “Qəzzada, təxminən, 10 ay davam edən qarşıdurmadan sonra İsrail indiyədək HƏMAS-ın yüksək səviyyəli liderlərini aradan götürə bilməmişdi”. Müəllif xatırladır ki, hərəkatın hərbi qanadının lideri Yəhya Sinvar hələ də Qəzzada sərbəst hərəkət edir. Bu ayın əvvəlində qruplaşmanın hərbi komandiri Məhəmməd Deifi hədəf alan iri hava hücumunun uğurlu olub-olmadığı da bəlli deyil.

Bəs Haniyənin öldürülməsi Qəzzə müharibəsinə necə təsir edəcək? Amerikanın CNN media orqanının xarici siyasət analitiki Barak Ravid xatırladır ki, Tel-Əviv Haniyəni oktyabrın 7-də keçirilən əməliyyatın memarlarından biri kimi görür. B.Ravid də HƏMAS liderinin öldürülməsinin regionda sülh axtarışlarına ciddi təsir göstərəcəyini bildirir. ABŞ-nin “New York Times (NYT) qəzetindəki təhlildə qeyd edilir ki, Haniyə ABŞ, Qətər və Misirin vasitəçiliyi ilə keçirilən atəşkəs danışıqlarında əsas rol oynayıb. Məqalədə Haniyənin öldürülməsinin mümkün atəşkəs razılaşmasının təxirə salınmasına səbəb olacağı iddia edilir. “Wall Street Journal” (WSJ) qəzeti də analitik yazısında vurğulayır ki, HƏMAS liderinin öldürülməsi Qəzza müharibəsinin bütün Yaxın Şərqə yayılmasına səbəb ola bilər.

2010-2012-ci illərdə Böyük Britaniyanın sabiq Baş naziri Devid Kemeronun milli təhlükəsizlik üzrə müşaviri vəzifəsində çalışmış lord Peter Rikketts də düşünür ki, HƏMAS liderinin öldürülməsi İsrailin Qəzza müharibəsində əməliyyatlarını ləngidəcək. BBC-yə danışan Rikketts deyib ki, HƏMAS-ın artıq atəşkəs danışıqlarına müsbət yanaşacağına şübhə edir: “Bu, İsrailə Qəzzada əməliyyatı bitirmək üçün siyasi meydan verə bilər. Çünki İsrailin Baş naziri Benyamin Netanyahu indi deyə bilər ki, o, həqiqətən, də Haniyənin liderliyinə böyük zərbə endirib”.

Oksforddakı Böhran Araşdırmaları İnstitutunun direktoru Mark Almond hesab edir ki, İsrailin HƏMAS-a qarşı sui-qəsdləri çox asanlıqla qiyamətə gətirib çıxara bilər. “İndependent” qəzetindəki məqaləsində müəllif qeyd edir ki, İsrailin gecənin bir yarısı İranın paytaxtının mərkəzində əsas düşməni olan fələstinliyə ölümcül zərbə vura bilməsi ilk baxışdan onun müasir döyüşlərdə ustalığının sübutudur. Bir neçə saat əvvəl Beyrutda Hizbullahın yüksək səviyyəli hərbi komandiri Fuad Şükürün hədəfə alınması kimi, HƏMAS lideri İsmayıl Haniyənin Tehranda öldürülməsi də İsrailin düşmənləri üçün heç bir sığınacaq olmadığını göstərdi. Bununla belə, M.Almondun fikrincə, İsrailin anti-İsrail zorakılığı təşkil edənləri tapmaq və öldürmək yollarının uzun siyahısı onu göstərir ki, sui-qəsdlər xalq tərəfindən dəstəklənən terror qruplarının və üsyançıların aradan qaldırılmasında dalana dirənir.

Müəllif düşünür ki, Haniyənin öldürülməsi onun inadkar savaşını daha da məşhurlaşdıra bilər. HƏMAS liderinin öldürülməsi təşkilatı bir müddət iflic edə bilər, lakin HƏMAS hərəkat olaraq qalacaq: “HƏMAS indi təkcə qisas tələbləri ilə qarşı-qarşıya qalmayacaq, eyni zamanda, İran, Hizbullah və İraqdakı digər iranpərəst qruplar və Yəməndəki husilər də oyuna girəcək. Hətta Qətər də Haniyənin öldürülməsi ilə vasitəçilik rolunun bitdiyini açıqlamışdı”.

Britaniyalı analitik HƏMAS liderinin Tehranda öldürülməsini İranın nüfuzuna zərbə kimi qiymətləndirir: “Tehranın İsrail tərəfindən alçaldılması onu tez bir zamanda nüvə silahı hazırlamağa sövq edə bilər. Bu, Yaxın Şərqdə qiyamət təhlükəsini artırır”. Britaniyalı analitik bildirir ki, İran İsrail və Amerikaya qarşı qisas çağırışları qarşısında geri çəkilmək istəməyəcək .

Regionda böyük hərbi münaqişə riskinin olduğunu göstərən amillərdən biri də budur ki, ABŞ Yaxın Şərqə aviadaşıyıcı zərbə qrupu, qırıcı eskadrilya və əlavə döyüş gəmiləri göndərir. CNN yazır ki, bu, Qəzza müharibəsinin ilk günlərindən Pentaqonun bölgəyə göndərdiyi ən böyük hərbi kontingentdir. İsrail də “mümkün ssenarilərə” hazır olduğunu söyləyir. İsraillilər qida ehtiyatı yığırlar, aviaşirkətlər uçuşları ləğv edir və səyahət xəbərdarlıqları qüvvədədir, bir sözlə bölgə İranın cavabına hazırlaşır.

**P.S.** “Asharq al-Avsat” qəzeti mənbələrə istinadən yazır ki, HƏMAS-ın siyasi bürosunun iki üzvü və hərəkatın hərbi qanadı İzzəddin əl-Qəssam briqadasının üç komandiri İsrailin endirdiyi zərbə nəticəsində Qəzza zolağında öldürülüb.

***SE LAY***
***XQ***

# Naxçıvan Nazirlər Kabineti bir sıra aktlar qəbul edib

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli Qərarı ilə “Naxçıvan Təlim Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi” təsdiq edilib. Bu barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.**



Nizamnamədə Naxçıvan Təlim Mərkəzinin muxtar respublikanın dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərdiyi müəyyən edilmiş, həmçinin mərkəzin fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları, idarə olunması forması, nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları, ləğvi və yenidən təşkili qaydası öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli Sərəncamı ilə “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibi təsdiq edilib.

Həmçinin Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Orqanik Naxçıvan” publik hüquqi şəxsin yaradılması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən “Orqanik Naxçıvan” publik hüquqi şəxsin Nizamnaməsinin təsdiq edilməsi barədə qərar qəbul edilib.

“Orqanik Naxçıvan” publik hüquqi şəxs muxtar respublikada orqanik istehsal sektorunun inkişaf etdirilməsi və orqanik məhsulların istehsalının tənzimlənməsi məqsədilə yaradılıb.

“Orqanik Naxçıvan” publik hüquqi şəxs tərəfindən aparılan işlərin səmərəliliyinin artırılması və görülən işlərə nəzarətin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamına əsasən müşahidə şurası yaradılıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 368**

**Bakı şəhəri, 30 iyul 2024-cü il**

**“Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 370**

**Bakı şəhəri, 30 iyul 2024-cü il**

**“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılması Qaydası”nda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 189 (Cild I); 2024, № 3, maddə 294) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.7-ci bənddən “və ailə münasibətlərinin bərpa olunmasına” sözləri çıxarılsın, həmin bənddə “əziyyət çəkən” sözləri “zərər çəkmiş” sözləri ilə əvəz edilsin və “müdafiəsi” sözündən sonra “o cümlədən qanunda nəzərdə tutmuş hallarda uşağın valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq alınması” sözləri əlavə edilsin;

1.2. 4.1-ci bənddə “biri” sözü “biri və ya bir neçəsi” sözləri ilə əvəz edilsin;

1.3. 4.1.1-ci və 4.1.2-ci yarımbəndlərdən “ilə bağlı hərəkətlər” sözləri çıxarılsın;

1.4. 4.1.5-ci yarımbəndə “sığınacaqla” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin;

1.5. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“5.1. Qanunun 11-ci maddəsinə əsasən məişət zorakılığı törətmiş şəxsin hərəkətləri nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, yerli icra hakimiyyəti orqanları tərəfindən məişət zorakılığı törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilir”;

1.6. 5.2-ci bənddə “30 (otuz)” sözləri “60 (altmış)” sözləri ilə əvəz edilsin;

1.7. 5.4-cü bəndə “Xəbərdarlıq edilməsindən” sözlərindən sonra “və qısamüddətli mühafizə orderinin verilməsindən” sözləri əlavə edilsin;

1.8. 5.5-ci bənddən “ilə bağlı hərəkətlər” sözləri çıxarılsın və həmin bəndə “şəxsin” sözündən sonra “xəbərdarlığa və” sözləri əlavə edilsin;

1.9. 5.6-cı bənddə “qadağan edilə bilər” sözləri “qadağan edilir” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 aprel tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası”nda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 398 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə “şəxslərə (bundan sonra - zərər çəkmiş şəxslər)” sözləri “şəxslərin (bundan sonra - zərər çəkmiş şəxslər) müvəqqəti sığınacaqla təmin edilməsi, habelə onlara” sözləri ilə əvəz edilsin;

2.2. 3.7-ci bəndin birinci cümləsinə “sığınacaqla” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin, ikinci cümləsində “Sığınacaqla” sözü “Müvəqqəti sığınacaqla” sözləri ilə əvəz edilsin, üçüncü cümləsinə “sığınacaqda” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin”;

2.3. 3.9-cu bəndin birinci cümləsinə “sığınacaqla” və ikinci cümləsinə “sığınacaqda” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin”;

2.4. 3.11-ci bəndə “sığınacaqla” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin;

2.5. 3.14-cü bəndə “sığınacaqdan” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110) ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi qaydası”nın 2.7.4-cü yarımbəndinə “sığınacağa” sözündən əvvəl “müvəqqəti” sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 372**

**Bakı şəhəri, 1 avqust 2024-cü il**

**“Təbii inhisar subyektlərinin Siyahısı”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təbii inhisar subyektlərinin Siyahısı”nın təsdiq edilməsi barədə” 2013-cü il 19 iyul tarixli 189 nömrəli Qərarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Təbii inhisar subyektlərinin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2.** “Təbii inhisar subyektlərinin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 884 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 373**

**Bakı şəhəri, 1 avqust 2024-cü il**

**“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 369**

**Bakı şəhəri, 30 iyul 2024-cü il**

**“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli Qərarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I) ilə təsdiq edilmiş “Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi **üçün sənədlərin** Siyahısı”nda **aşağıdakı dəyişikliklər edilsin:**

1.1. 1.5-ci bəndin birinci abzasına “döyüşçülərin” sözündən sonra “(şəhid statusu almış şəxslər istisna olmaqla)” sözləri, “(ərləri)” sözündən sonra isə “və övladları” sözləri əlavə edilsin;

1.2. 1.10-cu bəndin birinci abzasına “döyüşçülərin” sözündən sonra “(şəhid statusu almış şəxslər istisna olmaqla)” sözləri əlavə edilsin;

1.3. 1.11-ci bənd ləğv edilsin;

1.4. 1.16-cı bəndin birinci abzasından “ailəsi” sözü çıxarılsın.

2. “Azərbaycan Respublikasında istehsal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz dərəcələrinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 may tarixli 85 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 555 (Cild I) adına və 1-ci hissəsinə “avtomobillərinə,” sözündən sonra “avtobuslara, motosikletlərə,” sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1354 (Cild I); 2024, № 3, maddə 359) ilə təsdiq edilmiş “Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”nın 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“1.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 175-ci maddəsində başqa hal nəzərdə tutulmadıqda ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri alıcının bank və digər ödəniş hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına və ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu bəndin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi, təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi və ya notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına ödənilməsinə bərabər tutulur.”.

4. “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 iyun tarixli 320 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1.4.5.1.2-ci və 1.1.4.5.2.2-ci yarımmaddələrdə “etil (qida) spirti” sözləri “İçməli spirt” sözləri ilə əvəz edilsin;

4.2. 1.1.4.5.1.3-cü və 1.1.4.5.2.3-cü yarımmaddələrə “Pivə” sözündən sonra “(alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər” sözləri əlavə edilsin;

4.3. 1.1.4.5.1.5-ci və 1.1.4.5.2.5-ci yarımmaddələrə “məmulatları” sözündən sonra “və onların əvəzediciləri” sözləri əlavə edilsin;

4.4. 1.1.4.5.1.7-ci yarımmaddədə “Alkoqollu energetik” sözləri “Energetik” sözü ilə əvəz edilsin;

4.5. 1.1.4.5.1.8-ci yarımmaddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 5 | 1 | 8 | Sair məhsullar |

4.6. 1.1.4.5.1.9-cu yarımmaddə ləğv edilsin;

4.7. 1.1.4.5.2.6-cı yarımmaddəyə “avtomobillərinə” sözündən sonra “, dövlət qeydiyyatına alınmalı olan motosikletlərə” sözləri əlavə edilsin;

4.8. 1.1.4.5.2.7-ci yarımmaddəyə “məmulatlarına” sözündən sonra “, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza” sözləri əlavə edilsin;

4.9. 1.1.4.5.2.8-ci yarımmaddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 5 | 2 | 8 | Energetik içkilər |

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I); 2024, № 1, maddə 122, № 2 maddə 200, № 3 maddə 359) ilə təsdiq edilmiş “Nəzarət-kassa aparatlarının istismarı Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə (birinci halda), 1.3-cü bənddə və 8.3.1-ci yarımbənddə “qeydiyyatı” sözü “uçotu” sözü ilə əvəz edilsin;

5.2. 1.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“1.4.1. NKA - malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı aparılan pul hesablaşmaları barədə məlumatların toplanması, emal edilməsi, saxlanması və internet vasitəsilə ötürülməsi imkanına malik olan elektron avadanlıq və ya kompüter sistemləri.

NKA-lar aşağıdakı qruplara (kateqoriyalara) bölünür:”;

5.3. 1.4.6-cı yarımbənddə “müvafiq qanunvericiliyə əsasən qeydiyyatdan keçirmiş” sözləri “vergi orqanında uçota alınmış” sözləri ilə əvəz edilsin;

5.4. 1.4.7-ci yarımbənddə “qeydiyyatı və qeydiyyatdan çıxarılması” sözləri “vergi orqanında uçota alınması və uçotdan çıxarılması” sözləri ilə əvəz edilsin;

5.5. 7.2.15-ci yarımbənddə “qeydiyyata alındıqda, qeydiyyatdan çıxarıldıqda” sözləri “uçota alındıqda, uçotdan çıxarıldıqda” sözləri ilə əvəz edilsin;

5.6. 7.2.26-cı yarımbənddə “qeydiyyatdan” sözü “uçotdan” sözü ilə əvəz edilsin;

5.7. 7.2.28-ci yarımbənddə “müvafiq qanunvericiliyə əsasən qeydiyyata alınmamış” sözləri “vergi orqanlarında uçota alınmamış” sözləri ilə əvəz edilsin;

5.8. 8.2.1-ci yarımbənddə “vergi orqanları ilə müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi” sözləri “vergi orqanlarında müəyyən edilmiş qaydada uçota alınması” sözləri ilə əvəz edilsin;

5.9. 8.3.6-cı yarımbənddə “qeydiyyata alınmasını və qeydiyyatdan çıxarılmasını sözləri “uçota alınmasını və uçotdan çıxarılmasını” sözləri ilə əvəz edilsin;

5.10. 8.3.7-ci yarımbənddə “vergi orqanlarında qeydiyyatdan keçmiş” sözləri “dövlət reyestrinə daxil edilmiş” sözləri ilə əvəz edilsin;

5.11. 10.1.4-cü yarımbənddə “qeydiyyata” sözü “vergi orqanlarında uçota” sözləri ilə əvəz edilsin;

5.12. 11.2.2-ci yarımbənddə “NKA-nın qeydiyyatının ləğv edilməsi barədə” sözləri “NKA modelinin dövlət reyestrindən çıxarılması barədə” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191 (Cild I); 2024, № 3, maddə 359) ilə təsdiq edilmiş “Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1 1.3-cü bəndə “rəsmiləşdirilməsinə” sözündən əvvəl “və ya avans alınmasının” sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 2.2.12-ci yarımbənd əlavə edilsin:

“2.2.12. alınmış avans ödənişləri barədə (12 nömrəli əlavə).”;

6.3. 2.3-cü bənddə “və 2.2.9-cu yarımbəndlərində” sözləri “, 2.2.9-cu və 2.2.12-ci yarımbəndlərində” sözləri ilə əvəz edilsin;

6.4. aşağıdakı məzmunda 2.4.8-ci yarımbənd əlavə edilsin:

“2.4.8. bu Qaydaların 2.2.1-ci və 2.2.5-ci yarımbəndlərində nəzərdə tutulan elektron qaimə-fakturalar tərtib edilərkən bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura (fakturalar) mövcud olduqda həmin elektron qaimə-fakturanın (fakturaların) seriyası, nömrəsi və tarixi.”;

6.5. aşağıdakı məzmunda 2.17-3-cü bənd əlavə edilsin:

“2.17-3. Mallar (işlər, xidmətlər) təqdim edilmədən alınmış avans ödənişlərinə görə avansı əldə etmiş vergi ödəyiciləri tərəfindən bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura tərtib edilərək göndərilir. Alınmış avans ödənişlərinə görə mallar (işlər, xidmətlər) təqdim edildikdə bu Qaydaların 2.2.1-ci və ya 2.2.5-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura tərtib edilərək göndərilir. Bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-fakturanın tərtib edilməsi zamanı bu Qaydaların 2.3.8 - 2.3.26–cı yarımbəndləri üzrə məlumatlar doldurularkən yalnız alınmış avans ödənişləri üzrə təqdim ediləcək mallar, işlər və xidmətlər barədə məlumatlar qeyd edilməlidir.”;

6.6. aşağıdakı məzmunda 3.7.11-ci yarımbənd əlavə edilsin:

“3.7.11. alınmış avans ödənişləri üzrə avansın alındığı gün.”;

6.7. 1 və 5 nömrəli əlavələr yeni redaksiyada verilsin və yeni məzmunda 12 nömrəli əlavə edilsin (əlavə olunur).

7. “Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin Siyahısı”nın **təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 iyun tarixli 251 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 689 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:**

7.1. adından və 1-ci hissəsindən “heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən” sözləri çıxarılsın;

7.2. 2-ci hissədə “2024-cü” sözləri “2027-ci” sözləri ilə əvəz edilsin;

7.3. həmin Qərarla təsdiq edilmiş “Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin Siyahısı”nın “II. Yem əlavələri”nin 1-ci və 2-ci hissələrində “Heyvandarlıqda və quşçuluqda yem” sözləri “Yem” sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 311 (Cild I); 2024, № 3, maddə 302) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1.8-ci yarımbənddə, həmin Qaydalara əlavə - “Aksiz markalarına və məcburi nişanlamaya dair ümumi tələblər”in 6-cı hissəsinin və 6.2-ci bəndinin birinci abzasında, 6.2.1-ci yarımbəndində, 7-ci hissəsinin birinci və ikinci abzaslarında və həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Siyahısı”nın 2.4-cü bəndində “qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları” sözləri “alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar” sözləri ilə əvəz edilsin;

8.2. 6.7-ci bəndə “təsdiq olunması” sözlərindən sonra “(6.7-1-6.7-3-cü bəndlərdə nəzərdə tutulan hallar istisna olmaqla)” sözləri əlavə edilsin;

8.3. aşağıdakı məzmunda 6.7-1-6.7-3-cü bəndlər əlavə edilsin:

“6.7-1. Bu Qaydaların 2.1.5-2.1.9-cu yarımbəndlərində qeyd edilən mallara tətbiq olunan məcburi nişanlanmanın alınması üçün sifarişçi tərəfindən 6.2-ci bəndin tələbləri təmin olunduqda, Xidmət Sistem vasitəsilə aksizi ödəmək vəzifəsi barədə sifarişçiyə 6.7-ci bənd ilə müəyyən olunmuş müraciətə baxılma müddətində məlumat verir.

6.7-2. Qərarın qəbul edilməsi üçün aksiz bu Qaydaların 6.7-1-ci bəndinə uyğun olaraq, Xidmət tərəfindən verilən məlumat alındığı tarixdən 3 (üç) iş günü ərzində sifarişçi tərəfindən ödənilir və ödənişi təsdiq edən sənəd vergi orqanına təqdim olunur.

6.7-3. Bu Qaydaların 2.1.5-2.1.9-cu yarımbəndlərində qeyd edilən mallara tətbiq olunan məcburi nişanlanmanın alınması üçün aksizin ödənilməsi faktını təsdiq edən sənəd Xidmətə təqdim edildikdən sonra markaların alınması üçün sifarişin təsdiq olunması barədə 2 (iki) iş günü müddətində qərar qəbul edilir və Sistem vasitəsilə sifarişçiyə məlumat verilir.”;

8.4. 6.8-ci bənddə “və ya 6.5-ci” sözləri “, 6.5-ci və 6.7-1-6.7-3-cü” sözləri ilə əvəz edilsin.

9. “İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1467 (Cild I); 2024, № 3, maddə 340) aşağıdakı dəyişikliklər edilsin:

9.1. adına və 1-ci hissəsinə “çıxarılması” sözündən sonra “, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi” sözləri əlavə edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş “İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması” Qaydası üzrə:

9.2.1. adına və 1.1-ci bəndə “çıxarılması” sözündən sonra “, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi” sözləri əlavə edilsin.

9.2.2. aşağıdakı məzmunda 1.7-1-ci bənd əlavə edilsin:

“1.7-1. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən Vergi Məcəlləsinin 169-cu maddəsi ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.”;

9.2.3. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3-1. Qeyri-rezidentin ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi

3-1.1. Qeyri-rezidentin Azərbaycan Respublikasında ƏDV məqsədləri üçün qeydiyyatı vergi uçotuna alındığı tarixdən qüvvəyə minir.

3-1.2. Qeyri-rezident Azərbaycan Respublikasında vergi orqanında uçotda olan şəxs kimi fəaliyyətə başladığı tarixdən etibarən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən olunmuş formada platforma üzərindən Vergi Məcəlləsinə uyğun olaraq ƏDV bəyannaməsini təqdim edir və vergini büdcəyə ödəyir.

3-1.3. Təqdim edilmiş bəyannamədə ziddiyyət və ya səhv aşkar edildikdə, Dövlət Vergi Xidməti qeyri-rezidentdən əlavə məlumat, sənəd və izahat tələb edir. Sənədlər, məlumatlar və izahatlar üzrlü səbəb olmadan təqdim edilmədikdə vergi orqanının Vergi Məcəlləsinin 37-ci maddəsinə əsasən vergiləri hesablamaq hüququ vardır.

3-1.4. Qeyri-rezident vergini bu Qaydanın 2.7.9-cu yarımbəndinə uyğun olaraq seçdiyi valyutada ödəyir. Xarici valyuta ilə aparılan ödəniş onun həyata keçirildiyi gün Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi mübadilə məzənnəsi ilə manatla hesablanır.

3-1.5. Azərbaycan Respublikasında vergilərin ödənilməsi ilə bağlı ödənişlərin köçürüləcəyi hesaba dair məlumatlar platformada əks etdirilir.

3-1.6. Vergi Məcəlləsinin 59.1-ci maddəsinə uyğun olaraq, vergi müəyyən edilmiş müddətdə ödənilmədikdə qeyri-rezidentdən ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.”.

10. “Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 211 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Şahdəniz"– Azərbaycanın şahanə qaz yatağı



(əvvəli 1-ci səhifədə)

"Şahdəniz" yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişinin iştirakçıları – layihə səhmdarları müqavilə sahəsinin genişliyi və ehtiyatların zənginliyini nəzərə alaraq yatağın bir neçə mərhələdə işlənməsi ilə bağlı qərar qəbul ediblər. Birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb.

Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi, əhatəliyi, burada tətbiq olunan yüksək texnologiyalar baxımından seçilir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə burada hasilat artmağa başlayıb. 2022-ci ildə isə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını da işlənməyə daxil ediblər.

2024-cü ilin birinci yarısını da layihə üçün uğurlu hesab etmək olar. Belə ki, fevralın 13-də bütün əlaqədar tikinti işləri və istismar sınaqları uğurla başa çatdırıldıqdan sonra yatağın şərq-şimal cinahından hasilata başlanıb. İyunun 19-da isə yatağın bu hissəsində daha bir quyu istismara daxil edilib. Bununla da, "Şahdəniz-2" layihəsinə daxil olan beş sualtı işlənmə cinahının əhatə etdiyi bütün sualtı infrastrukturun – boru kəmərləri, hasilat manifoldları, sualtı elastik kabellər və birbaşa elektrik isitmə sisteminin təhvili uğurla başa çatdırılıb.

İlin ötən dövründə "Xankəndi" sualtı tikinti gəmisi "Şahdəniz-2" layihəsi çərçivəsində quraşdırma işlərini və istismar sınaqlarını davam etdirməklə yanaşı, yatağın istismarı ilə bağlı ümumi işlərə də dəstək verməyə başlayıb. Həmin tədbirlərə isə hazırda istismarda olan bütün sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə işləri daxildir. Yeri gəlmişkən, BP və tərəfdaşlarının xüsusi olaraq vahid gəmi strategiyasından istifadə etmələri üçün düşünülmüş istismar və texniki xidmət üzrə yeni müqaviləyə əsasən "Xankəndi" gəmisinin göstərdiyi xidmətlərin həcmi əhəmiyyətli dərəcədə genişləndirilib. Bu da o deməkdir ki, bundan sonra dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün məhz "Xankəndi" gəmisindən istifadə olunacaq. Bu da BP və tərəfdaşlarına əməliyyatları daha təhlükəsiz və daha səmərəli etməyə imkan yaradacaq.

2024-cü ilin birinci yarısında layihə iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Hesabat dövründə "Şahdəniz- Alfa"dan quyu qazılmasa da, platformanın qazma qurğusunda profilaktik işlər aparılıb. Bununla belə, "İstiqlal" və Heydər Əliyev qazma qurğuları vasitəsilə "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işlər davam etdirilib. Artıq yatağın şərq-şimal cinahında "SDH03" quyusunda qazma işləri tamamlanıb, "SDH01" quyusu isə yenidən açılıb. İlin ötən dövründə yatağın qərb cinahında "SDD05" quyusunun qazılması davam etdirilməklə yanaşı, "SDH02" quyusunun yenidən açılması işlərinə başlanıb. Bütün bunlarla yanaşı, 2024-cü ilin birinci yarısında "Şahdəniz" müqavilə sahəsində geoloji kəşfiyyat işləri də aparılıb. Belə ki, hazırda istismarda olan məhsuldar layların altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə ötən il "SDX-8" kəşfiyyat quyusundan əldə olunmuş məlumatların təhlili davam etdirilib. Ümumilikdə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 21 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 4-ü qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

Məlum olduğu kimi, "Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminaldakı mövcud qurğular isə qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CQBK) ötürür. Yeri gəlmişkən, bu ilin ilk yarısında terminaldan gündəlik orta hesabla, təxminən 76 milyon kubmetr "Şahdəniz" qazı ixrac olunub. Hesabat dövründə boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 37,3 milyon dollar, əsaslı məsrəflərinə isə 8 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilmiş Cənubi Qafqaz boru kəməri (CQBK) "Şahdəniz" qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Bu ilin ilk yarısı ərzində CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 63,1 milyon kubmetr təşkil edib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb.

# "Şorbulaq"da filiz ehtiyatları araşdırılır

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən "Şorbulaq" filiz təzahürləri sahəsində axtarış-qiymətləndirmə işlərinə başlayıb. Bundan da məqsəd mövcud təzahürlərin ilkin ehtiyatlarının qiymətləndirilməsidir.**



Qurumdan bildiriblər ki, axtarış-kəşfiyyat proqramına əsasən, burada ilkin mərhələdə kameral qiymətləndirmə və məsafədən tədqiqat işləri aparılıb. Perspektivli zonaların qısa vaxtda müəyyənləşdirilməsi, yüksək vəsait tələb edən buruqqazma işlərinə qənaət edilməsi məqsədilə tədqiqatlarda qeyri-invaziv axtarış metodlarından olan hiperspektral peyk çəkilişlərindən istifadə edilir. Paralel olaraq arxiv geoloji materialların toplanması, sistemləşdirilməsi, rəqəmsallaşdırılması işləri də icra olunub. Cari il ərzində davam edəcək genişmiqyaslı axtarış-qiymətləndirmə işlərinin nəticəsinə uyğun olaraq növbəti tədqiqat mərhələsinə keçid, sahədə buruqqazma işləri ilə bağlı müvafiq qərarlar qəbul ediləcəkdir.

Xatırladaq ki, "Şorbulaq" təzahür sahəsi Kəlbəcər rayonunda, Tərtərçayın sol qolu olan Levçay çayının hövzəsində yerləşir. Təzahür sahəsində qızıl, xrom və civə metallarının olduğu proqnozlaşdırılır. Təzahür sahəsi 1958-ci ildə kəşf edilib.

Hazırda "AzerGold" QSC tərəfindən bir neçə istiqamət üzrə geoloji tədqiqatlar aparılır. QSC-nin idarə etməsinə verilən filiz sahələri ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə ölkə ərazisində ümumi geoloji axtarış işlərinin icrası davam etdirilir. Eyni zamanda, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq QSC tərəfindən mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi kimi vacib tapşırıqlar icra edilir.

# Ölkədə 5,88 min ton çay istehsal edilib

**Azərbaycanda yaşıl çay istehsalı artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında ölkə üzrə 5,88 min ton məhsul yığılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 373,7 ton və ya 6,8 faiz çoxdur.**



Cari il iyul ayının 1-i vəziyyətinə ölkədə hazır məhsul ehtiyatı 95,8 ton təşkil edib. İlin ilk yarısında Azərbaycandan 3 milyon 123 min dollar dəyərində 345 ton çay ixrac olunub. Dövlət Gömrük Komitəsinin aylıq hesabatı əsasında aparılan hesablamalara görə. çay ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 104,5 min dollar və ya 4 faiz miqdar ifadəsilə isə 10 ton və ya 3 faiz artıb. Xatırladaq ki, 2023-cü ilin ilk 6 ayında ölkəmizdən 3 milyon 18 min dollar dəyərində 335 ton çay ixrac olunmuşdu.

Bu ilin birinci yarısında Azərbaycanın ixrac etdiyi çayın 1 kiloqramının orta ixrac qiyməti 15,40 manat təşkil edib. Əvvəlki ilin eyni dövründə isə bu rəqəm 15,33 manat olub. Yeri gəlmişkən, bu il ölkənin ümumi ixracının 0,02 faizi, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 0,20 faizi çayın payına düşüb.

**Pirallahı Sənaye Parkına indiyədək 41 milyon manatadək investisiya yatırılıb, 150-dən çox daimi iş yeri yaradılıb. Bu barədə "XQ"yə İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib. Bildirilib ki, mövcud layihələr üzrə əlavə olaraq 76 milyon manatdan çox investisiyanın qoyulması, 400-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur.**

Xatırladaq ki, indiyədək investisiya kapitalı 121 milyon manatdan çox olan 7 sahibkarlıq subyektinə Pirallaı Sənaye Parkının rezidentliyi statusu verilib. Artıq onlardan 2-si istehsal fəaliyyətinə başlayıb. İndiyədək isə sənaye parkında 53 milyon manatlıq məhsul satışı həyata keçirilib.

# Pirallahı Sənaye Parkında 53 milyon manatlıq məhsul satılıb




Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bu il iyulun 1-nə qədər Azərbaycanın sənaye zonalarından 13,5 milyard manatlıq məhsul satılıb ki, bunun da 4,4 milyard manatlıq hissəsi ixrac edilib. Satışın 1,4 milyard manatlıq, ixracın isə 0,45 milyard manatlıq hissəsi cari ilin ilk yarısının payına düşüb. Sənaye zonalarında istehsal olunan məhsullar 70-dən artıq ölkəyə ixrac edilib.

Agentliyin məlumatına əsasən, ölkənin sənaye zonalarında indiyədək ümumi investisiya dəyəri 8 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manat investisiya yatırıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiya yatırılması və 7 min 100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

# Mərkəzi Bankın valyuta ehtiyatları 2,5 milyard dollardan çox artıb

**Bu il avqust ayının 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 11 milyard 765,7 milyon ABŞ dollar təşkil edib. Təkcə iyul ayında bankın valyuta ehtiyatları 28,1 milyon dollar və ya 0,23 faiz artıb.**



Son 1 ildə isə AMB-nin valyuta ehtiyatları 2 milyard 521,7 milyon dollar və ya 27,3 faiz çoxalıb. Xatırladaq ki, 2023-ci ilin eyni dövründə qurumun valyuta ehtiyatları 9 milyard 244 milyon dollar təşkil edib.

# Biləsuvarda taxıl biçini başa çatıb

**Biləsuvar rayonunda 2024-cü ilin məhsulu üçün payızlıq və yazlıq olmaqla 33 min 936,5 hektar sahədə taxıl əkilib. Bunun da 9 min 698,9 hektarı buğda, 24 min 237,6 hektarı isə arpa sahəsidir.**



Artıq taxıl sahələrində biçin işləri yekunlaşıb. Mövsümün əvvəlindən zəmilərdən 95 min 532,2 ton məhsul götürülüb. Bu il rayon üzrə orta məhsuldarlıq 28,55 sentner təşkil edib. Ötən müddətdə sahələrdən 28 min 572,2 ton buğda və 66 min 960 ton arpa götürülüb. Buğda və arpa üzrə orta məhsuldarlıq isə müvafiq olaraq 29,5 sentner və 27,6 sentner təşkil edib.

Rayon üzrə taxıl biçininə 80 ədəd kombayn cəlb edilib. Onlardan 7-si Kənd Təsərrüfatı Nazirliyinə məxsus "Aqroservis" ASC-nin Biləsuvar bölməsinə, 36-sı digər rayon bölmələrinə, 37-si isə fiziki şəxslərə məxsus olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



**2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərar verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizin qlobal miqyasda güclü diplomatiyasının göstəricisi və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun yüksək səviyyədə özünütəsdiqinin ifadəsidir.**

## “Yaşıl” gələcək sivilizasiyanın xilası deməkdir



Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq “yaşıl enerji” iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib.

Azərbaycanda keçiriləcək belə bir nüfuzlu tədbirlə bağlı Mərkəzi Nəbatat Bağı Publik Hüquqi Şəxsin qida və dərman bitkilərinin biokimyası laboratoriyasının müdiri, biologiya elmləri doktoru Həsən Babayev söhbətində dedi:

– Bu ilin noyabr ayında keçiriləcək COP29 respublikamızın beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyır, ölkəmizin baş verən proseslərə müşahidəçi yox, iştirakçı kimi qoşulduğunu dünyaya bir daha nümayiş etdirir. Bununla bağlı məsuliyyətli məsələləri də Azərbaycan uğurla həll etməyə qadirdir.

İqlim dəyişikliyi baxımından planetimizin gələcəyi müzakirə ediləcək bu beynəlxalq konfransın respublikamızda keçirilməsi, eyni zamanda, regional təhlükəsizlik, enerji keçidi və “yaşıl artım”-la bağlı Azərbaycanın mövqeyinin bütün dünyaya təqdim olunmasıdır.

Bu məqamda diqqəti son vaxtlar dilimizdə tez-tez işlədilən “yaşıl” ifadəsinə yönəltmək istəyirəm. Bu söz, belə demək mümkünsə, ali bitkilərin sinonimi kimi işlədilir. Çünki “yaşıl” təbiətdə hər şey deməkdir, tibbdə dərman preparatlarıdır, həmçinin ərzaqdır, qidadır, tikinti materialıdır, oksigendir, gözəllikdir, geyimdir, enerji materialı və eyni zamanda, təbii enerji istehsalçısı və toplayanıdır. Deməli, “yaşıl” həm də güclü iqtisadiyyatın yaradılması üçün ona açılan qapılardır. Bir sözlə, “yaşıl” gələcək sivilizasiyanın xilası deməkdir.

Bu gün istifadə etdiyimiz yeraltı təbii karbohidrogen yataqları – neft, qaz, torf və başqa enerji birləşmələri milyon illər bundan əvvəlki bitkilər tərəfindən toplanıb tədarük edilərək biz nəsillərə həyat mənbəyi kimi gəlib çatan Günəş enerjisidir. Günəş universal enerji mənbəyidir. Hazırda elə bir üsul, mexanizm, texnologiya yoxdur ki, o, Günəş enerjisini toplayıb saxlasın və gələcək nəsillərə ötürsün. Bu xüsusiyyət yalnız yaşıl bitkilərə mənsubdur. Bu mexanizmin adı fotosintezdir. Fotosintez zamanı yaşıl yarpaqlarda yerləşən xloroplastlarda olan xlorofil piqmenti Günəşdən axıb gələn fotonların-kvantların enerjisini tutmaq və enerjili birləşmələrin tərkibindəki rabitələrdə toplayıb saxlamaq xassəsinə malikdir.

Kvant və fotonların isə enerjisi var, yükü yoxdur. Ozon qatını keçib, Yer üzərinə çatan fotonlar istənilən əşya, cisim, bitki, heyvan və s. ilə toqquşanda enerjisini onlara verib, özləri isə yox olurlar. Fotonların daşıdığı enerjini yalnız bitkilər toplayıb saxlaya bilirlər. Bundan kənarda olanlar isə belə xassəyə malik deyillər. Onlar Günəş şüaları altında olarkən enerjini udaraq qızır, qaranlıqda isə onu ötürərək soyuyurlar.

Mən bu təbii imkandan səmərəli yararlanıb, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə respublikamızın bütün magistral yollarının sağ və solunda yaratdığı geniş meşə zolaqlarına görə təşəkkür edirən. Amma çatışmayan məsələlərə də toxunmağı vacib bilirəm. İyulun 7-də Gəncədən qayıdarkən magistralın Gəncə-Kürdəmir ərazisində, yolun hər iki tərəfində yüzlərlə ağacın tam və ya qismən quruması müşahidə etdim. Bu, susuzluqdan, yaxud xəstəlikdən baş verə bilər. Bununla əlaqədar adıçəkilən nazirliyin mütəxəssislərinin belə mühüm məsələnin səbəbinin araşdırmalarını və ciddi tədbir görmələrini xahiş edirəm.

Yeri gəlmişkən, bu məqamda ictimaiyyətin diqqətini Konstitusiyamızda ekologiya ilə bağlı 3 maddəyə cəlb etmək istəyirəm: Maddə 14. Təbii ehtiyatlar; maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ; maddə 78. Ətraf mühitin qorunması.

Həmçinin 1991-2009-cu illərdə ekologiyanın müxtəlif sahələrini əhatə edən 124 qanunun qəbul edilməsini, eləcə də 1996-2009-cu illərdə bu sahə ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinin 93 fərman imzalamasını da xatırlatmaq istərdim.

Bütün bunlar isə o deməkdir ki, Azərbaycanda biomüxtəlifliyin mühafizəsi bir çox qlobal konvensiya və beynəlxalq hüquqi aktlarla tənzimlənir. Məsələn, köklərinin kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarət haqqında konvensiya 1973-cü ildə Vaşinqtonda qəbul edilmişdir. Buna bənzər konvensiyalar digər problemlərlə bağlı olaraq da qəbul olunmuşdur.

İndi siz təsəvvür edirsinizmi “Yaşıl dünya” nə deməkdir?! “Yaşıl dünya” həyat deməkdir. Ona görə də biz mövcud yaşıllıqları qorumalı, eyni zamanda, yeni-yeni yaşıllıqlar salmalıyıq. “Yaşıl dünya” insan həyatının cövhəridir. Bizim hər birimiz Yer üzünün yaşıllıq örtüyünün əhatə dairəsinin böyüməsinə çalışıb, öz töhfəmizi verməliyik. Mübaliğəsiz deyirəm, cənab İlham Əliyevin 2024-cü “Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi bütün dünyaya “sülh ağacı”nın əkilməsinə çağırışıdır. Bu sərəncam və Azərbaycanda COP29-un keçirilməsi həm də bəşəriyyətin müharibələrdən, öldürücü silahlardan, susuz ərazilərin səhralaşması və şoranlaşmasından, təbii fəlakətlərdən xilas olmasının qlobal miqyasda çıxış yoludur.

Yeri gəlmişkən, bu gün beynəlxalq ictimaiyyəti ciddi narahat edən iqlim dəyişikliyi problemi barədə də bəzi fikirlərimi diqqətə çatdırmaq istərdim. Əvvəlcə deyim ki, qlobal iqlim dəyişikliyinin başlıca səbəbi bəşəriyyəti caynağına alan qadağan olunmuş silahlardır. Bu gün bütün dünya atmosferin, torpağın və suyun çirklənməsinə, istixana qazlarının yaranmasına qarşı barışmaz olmalıdır. Azərbaycan parnik effektini 2030-cu ilədək 1990-cı illə müqayisədə 35 faiz, 2050-ci ilədək 1990-cı illə müqayisədə 40 faiz azaltmağı hədəf kimi götürüb. Bütün bu sadaladıqlarım əsasında isə deyə bilərəm ki, Azərbaycan “Yaşıl dünya naminə həmrəylik ili”nə imza atmaqla həm də sülhsevər dövlət olduğunu nümayiş etdirib.

Onu da bildirim ki, Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli “Yaşıl dünya naminə həmrəylik ili” sərəncamı ekologiyanın qorunması, təbii sərvətlərə qənaətlə yanaşılması, bərpaedilən enerji resurslarından səmərəli istifadə olunması, yaşıllıqların salınması, qorunması, inkişafı və əhalinin maarifləndirilməsinə yönəlib.

Bu məqamda tarixə də qısa bir baxış etmək istəyirəm. Ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti illərində park və xiyabanların salınması, ağac və kolların əkilməsi Bakının “daş libası”nı “yaşıl libas”la əvəzlədi. Hətta yadımdadır ki, paytaxtımıza səfər edən xarici ölkələrin rəsmi nümayəndələri Bakıdakı dostluq parkında həmin ölkənin adından rəmzi olaraq xatirə ağacı əkirdilər. Bu, çox böyük təbliğat idi.

Bəli, ağac, yaşıllıq olan yerdə həyat var. Bu gün Prezident İlham Əliyev də bu bəşəri layihələri günün reallığı baxımından XXI əsrdə yeni bir platformada, novatorcasına beynəlxalq səviyyədə davam etdirir.

***Söhbəti hazırladı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

## Erməni vandalizminin Qarabağda ekoloji terroru bəşəri cinayətdir

**Son vaxtlar dünya ölkələri arasında iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi və tullantılar kimi 3 amilin törətdiyi planetar böhranı həll etmək naminə həmişəkindən daha sıx əməkdaşlığın yaranmasına xüsusi önəm verilir. Azərbaycanın COP29-a hazırlaşdığı indiki günlərdə bu məsələ daha çox diqqətdə saxlanılır. Keçirilən tədbirlərdə iqlim dəyişikliyi ilə əlaqədar problemlərin istixana effekti yaradan qazların emissiyasına təsiri də geniş müzakirə edilir. Meşə sahələrinin qorunması və yeni sahələrin salınması zəruriliyinə həssaslıqla yanaşılır. Çünki iqlim dəyişikliyinin mənfi təsirinə baxmayaraq, meşələr bu təsirləri karbon qazını tutma zonaları yaratmaqla azaldır. Ona görə də meşə təsərrüfatlarının problemlərinin həlli sahəsində ciddi işlər görülməsi qarşıya mühüm vəzifə kimi qoyulur.**



Azərbaycan Texniki Universitetinin “Kimya texnologiya, təkrar emal və ekologiya” kafedrasının dosenti Nəcibə Şirinova bu barədə söhbətində ətraflı bəhs edərək bildirdi ki, Azərbaycan regionda ən az meşə sahələrinə malik olan ölkələrdən biridir. Ölkəmizdə meşə fondunun ümumi sahəsi 1 milyon 213 min hektardır. Meşə ilə örtülü sahələr isə 1 milyon 46 min hektardır ki, bu da respublika ərazisinin 12,08 faizini (Gürcüstanda 39 faiz, Ermənistanda 35 faiz) təşkil edir. Onun da 49 faizi Böyük Qafqazın, 34 faizi Kiçik Qafqazın, 15 faizi Talış dağlarının, 2 faizi isə aran zonasının payına düşür.

Rəqəmlərdən də aydın olur ki, ölkəmizdə meşələrin indiki vəziyyəti ciddi narahatlıq doğurur. Belə ki, Azərbaycan ərazisindəki meşələr təsərrüfat məqsədli deyil. Lakin buna baxmayaraq, antropogen təsir nəticəsində meşəsizləşmə prosesi – insanlar tərəfindən meşələrin qırılması baş verir. Respublikada meşəsizləşmənin dəqiq başlanğıc tarixi bilinmir, onu arxiv materiallarından da arayıb tapmaq qeyri - mümkündür. Lakin ehtimal etmək olar ki, beş əsr öncə respublikamızın meşəlik faizi 40 – 50 faizdən aşağı olmayıb.

Nəcibə Şirinovanın sözlərinə görə, meşə təsərrüfatlarının problemlərinin həlli sahəsində ciddi işlər görülməlidir. Ölkə ərazilərində, xüsusilə də az meşəli və meşəsi olmayan aran rayonlarında meşəbərpa və qoruyucu meşə zolaqlarının həcmi bir neçə dəfə artırılmalıdır. Bu səbəbdən də respublikamızda təbiətin mühafizəsi, bioloji müxtəlifliyin azalması və ətraf mühitin çirklənməsinin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilməli, meşələrin rayonlaşdırılmış cinslər hesabına bərpası, keyfiyyətinin və məhsuldarlığının artırılması diqqət mərkəzində saxlanılmalıdır.

Böyük Qafqazın cənub yamacının şərq qurtaracağında meşəsizləşmə bütün dağ qurşaqlarında müşahidə olunur. Pirsaatçay hövzəsində yuxarı dağ – meşə qurşağı tamamilə sıradan çıxarılıb, orta dağ –meşə qurşağında yalnız sağ sahil yamacda qalıb. Qozluçay hövzəsinin meşəlik dərəcəsi 5 faizdən aşağıdır: burada orta dağ – meşə qurşağında kiçik sahələrdə güclü pozulmuş halda fıstıq və palıd meşəsi qalıb. Qozluçaydan şərqə Çikilçay və Çebotarçay hövzələri tamamilə meşəsizləşdirilib, yerində bozqırlar və törəmə tipli kolluqlar formalaşıb.

Kiçik Qafqaz dağlarının (Gədəbəy, Daşkəsən, Kəlbəcər, Laçın) subalp zonasında və orta dağ – meşə qurşağında isə ərazinin relyefinin nisbətən sakit olması, dağarası çökəkliklərin mövcudluğu qədim zamanlardan bəri insanları özünə cəlb edib, yaşayış məntəqələri əsasən burada cəmləşib. Bununla əlaqədar Böyük Qafqazdan fərqli olaraq meşənin iqlim sərhədinin aşağı enməsində, orta dağ – meşə qurşağının meşəsizləşməsində maldarlıqla yanaşı, həm də əkinçiliyin inkişafı öz təsirini göstərib. Uzunmüddətli əkinçilik və maldarlığın təsiri nəticəsində meşə demək olar ki, heç harda öz təbii sərhədində qalmayıb, bir çox yerlərdə subalp tipli meşə tamamilə sıradan çıxarılıb, onu dağ çəmənləri, kolluqlar və ya qayalıqlar, daşlıqlar əvəz edib.

Nəcibə Şirinova söhbətinin sonunda dedi: – Qarabağ və Şərqi Zəngəzur işğal edilməzdən əvvəl bu ərazilər meşələrlə zəngin idi. Bu torpaqlarda nadir ağaclar bitirdi. Ermənistanın qəsbkarlığından sonra isə həmin meşələr ekoterrora məruz qaldı, nadir ağaclar kəsilərək daşındı. Qiymətli ağac növləri – qoz, palıd, Eldar şamı və xüsusi mühafizə altında olan digər ağaclar oduncaq tədarükü üçün qırılaraq mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparıldı.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində 260,3 hektar meşə fondu sahəsi olub. Həmin ərazilərin 228 min hektarı meşə ilə örtülü olub və onun 54 min hektarı ermənilər tərəfindən məhv edilib.

Ərazilər işğaldan azad edildikdə isə bədxah düşmənlərimiz meşələrə od vuraraq oranı tərk etdilər. Bununla əlaqədar bu zonada meşəlik faizi kəskin aşağı düşüb. Hazırda meşələrinin qoruyucu funksiyalarını yüksəltmək üçün onun seyrək sahələrinin bərpası (təbii bərpalar hesabına), meşə və örtülü olmayan sahələrində isə məhsuldar ağac və kollar hesabına yeni meşə massivləri yaradılır. Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilan rayonlarında meşə fondu sahələri genişləndirilir.

İndiyədək Zəngilan şəhərinin giriş hissəsində 55 hektar, Ağdam şəhəri yaxınlığında isə 11 hektar sahədə yerli torpaq iqlim şəraitinə uyğun yaşıllıq salınıb. Bərpa-doldurma tədbirləri çərçivəsində Zəngilan rayonundakı yaşıllıq sahəsində 9,4 min, Ağdam rayonunun yaşıllıq sahəsində 1,4 min Eldar şamı tingi əkilib. Meşə-bərpa işləri çərçivəsində isə Zəngilan rayonunda 42 hektar, Cəbrayıl rayonunda 15 hektar və Füzuli rayonunda 2 hektar ərazidə əkin və səpin işləri aparılıb. Cəbrayıl rayonunda 20 hektar ərazidə 6,2 min tingin əkilməsi ilə yeni yaşıllıq sahəsi salınıb.

Azərbaycanın digər ərazilərinə gəldikdə isə vaxtilə Kür çayı ölkəmizin ərazisində bütün uzunluğu boyu Xəzər dənizinə kimi tuqay meşələri ilə əhatə olunubmuş. Hazırda isə bu meşələrin yadigarlarına kiçik “ləkələr” şəklində rast gəlinir. Son zamanlar isə bu kimi meşə sahələrinin də sıradan çıxması təhlükəsi gözlənilir.

Aparılmış müşahidələr göstərdi ki, hazırda Şirvan şəhəri yaxınlığında, Kür qırağında yalnız bir neçə qurumaqda olan qovaq ağacı qalıb, ondan yuxarıdakı ərazilərdə isə qalan meşə sahələri yaxşı vəziyyətdə deyil.

Hazırda Kür-Araz çayları ətrafında Tuqay meşələrinin bərpası, rekonstruksiya yolu ilə cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçieilir, yeni meşələr salınır. Məqsəd bu ərazilərdə meşələrinin məhv olmasının qarşısını almaqdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Azərbaycanın təşəbbüsü ilə COP29 ərəfəsində İqlim Maliyyəsi Fəaliyyəti Fonduna (CFAF) daxil ediləcək dağ-mədən şirkətlərinin payı dəqiqləşdirilir. Bu barədə mediaya açıqlamasında COP29-un baş danışıqçısı Yalçın Rəfiyev deyib. “Biz Azərbaycanda və dünyanın müxtəlif yerlərində olan qazıntı yanacağı istesal edən şirkətlərlə CFAF-a könüllü töhfələr haqqında danışıqlara başlamışıq. O cümlədən, artıq SOCAR, neft-qaz və kömür hasilatı sahəsində fəaliyyət göstərən digər özəl şirkətlərlə ətraflı müzakirələr aparılır. Şirkətlərin səhmləri hələ müəyyənləşdirilməyib. Buna baxmayaraq, vəziyyət iqlim sammitinə qədər aydınlaşacaq”, – Y.Rəfiyev qeyd edib.**

## Maliyyə təşəbbüslərinə maraq artır



COP29-un baş danışıqçısının sözlərinə görə, hazırda səhmlərin şirkətlərdən birdəfəlik ödəmələr, yoxsa şirkət gəlirlərindən ayırmalar olacağı ilə bağlı müzakirələr həyata keçirilir, bu məsələ üzrə ərəb, Avropa və Asiya şirkətləri ilə danışıqlar aparılır.

Artıq 10 ölkənin şirkətləri ilə CFAF sponsorları olmaq razılaşdırılıb. Azərbaycanın bu təşəbbüsü isə cari il iyulun 19-da Bakıda COP29 sədarətinin Fəaliyyət Planının təqdimatı zamanı təqdim olunub.

Xatırladaq ki, 1 milyard ABŞ dollar ilkin büdcəsi olan İqlim Maliyyəsi Fəaliyyəti Fondu inkişaf etmiş ölkələrə yardım, eləcə də istixana qazları emissiyasının azaldılması üzrə milli töhfələrin həyata keçirilməsi üzrə tədbirlər məqsədilə yaradılıb. Fond tərəfindən özəl sektora emissiyaları azaltmaq və iqlim dəyişikliyinin yümşaldılması üzrə tədqiqat və araşdırmalara yardım etmək planlaşdırılıb. Bunun əsasən, qrant proqramları vasitəsilə həyata keçirilməsi nəzərdə tutulub.

***XQ***

## COP29 sammiti TDT-yə perspektivli gələcək vəd edir

**Bakıda keçiriləcək COP29 sammiti Türk Dövlətləri Təşkilatına (TDT) ətraf mühitin davamlılığı və dayanıqlılığı istiqamətində mühüm töhfələr vermək üçün perspektivli imkanlar təqdim edir.**

TDT Baş katibi Kubanıçbek Ömüraliyev “The Astana Times”a müsahibəsində daha sonra deyib: “Ətraf mühitin davamlılığı və dayanıqlılığı təşkilatın gündəmində diqqətdə saxlanılacaq. Əsas prioritetlərdən biri də regionda ticarət və investisiyalar üçün yeni imkanlar yaratmaq məqsədilə müxtəlif təşəbbüslər vasitəsilə iqtisadi inteqrasiyanın və ticarət əlaqələrinin gücləndirilməsi olacaq”, – deyə K.Ömüraliyev əlavə edib.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28 plenar iclasında qəbul edilib.

***XQ***

Yay istirahətinin marşrutları

# "Dadlı-ləzzətli" turizm

**Son illər dünya turizm bazarında əhəmiyyətli dərəcədə populyarlıq qazanmış sahələrdən biri də qastronomiyadır. Səyyahlar bunu çox vaxt kulinariya və ya mətbəx turizmi də adlandırırlar. Bu sahə bir növ imkan verir ki, xarici ziyarətçilər getdikləri ölkənin kulinariya irsini yaxından tanısınlar.**



Qastronomiya turizmi unikal qida tədarükü vasitəsilə destinasiyanın bu irsini araşdırmaq və ölkənin qida mədəniyyətinə yaxından bələd olmaq üçün ən yaxşı üsuldur. Qeyd edilən sektor mətbəxlər dünyası üçün optimal qiymətləndirməni təşviq edən səyahət növüdür. Araşdırma zamanı məlum olur ki, zəngin kulinariya potensialına malik ölkəmizdə bu sahənin inkişaf yönləri bir o qədər ürəkaçan deyil. Azərbaycana üz tutan hər bir əcnəbi milli mətbəximizin qida və inqridiyentlərini tanımaqla yanaşı, onların mədəni və tarixi əhəmiyyəti barədə bilgi əldə edə bilər.

Bəs, ölkəmizin sözügedən sahədə turizm strategiyası necə qurulub? Turizmin inkişafına cavabdeh qurum olan Dövlət Turizm Agentliyi (DTA) hazırda bu istiqamətdə hansı layihələr icra edir?

DTA-nın açıqladığı məlumatlarda qeyd edilir ki, qastronomiya turizmi qurumun fəaliyyət istiqamətləri arasında xüsusi yer tutur. Agentliyin fəaliyyəti yalnız qastronomik turların təşkili və ya milli mətbəximizin tanıdılmasını ehtiva etmir. Eyni zamanda, regionlarda unudulmuş qədim dadları üzə çıxarmaq, biomüxtəlifliyi qorumaq və yerli qastronomiyanın tanınmasına nail olmaq da qastroturizmin inkişaf sxeminə daxildir. Həmçinin xarici ölkələrdə də bu sahənin tanıdılması, təbliği və təşviqi istiqamətində gərəkli təqdimatlar edilir.

Əlbəttə, qastroturizmin dirçəlməsi üçün bütün bunlar kifayət deyil, digər zəruri addımlar da atılmalıdır. Ekspertlər hesab edirlər ki, aidiyyəti qurumlar və turizm sektorunda çalışan təşkilatlar tərəfindən müəyyən işlər görülsə də, qastronomiyanın daha dinamik səviyyəyə qaldırılması üçün silsilə tədbirlərə ehtiyac var.



**Turizm üzrə ekspert Ruslan Quliyev bildirdi ki, Azərbaycanda mətbəx turizminin inkişaf etdirilməsi üçün daha böyük potensial mövcuddur. Ekspertin sözlərinə görə, təşkil olunan istənilən tematik turlarda qastronomiya turizmi təxminən 35 faiz təşkil edir.**

– Nəzərə alaq ki, Azərbaycanın bölgələrində müxtəlif mətbəx çeşidləri var, bu da dünyada nadir amillərdəndir. İstənilən mötəbər tədbirdə turistlərin fikrini öyrəndikdə, ilk təəssüratları mətbəxlə bağlı olur. Mətbəx turizmində təqdimat mədəniyyətinin inkişaf etdirilməsinə ehtiyac var. Məsələn, Türkiyə və Avropa mətbəxinə baxdıqda, qidanın masaya gətirilməsi ənənəsi nümunə kimi götürülə bilər. Bu, çox vacib amillərdəndir. Son vaxtlar dünyada bu sahədə inanılmaz sintezlər və kombinasiyalar həyata keçirilir. Turizmin bu növünün inkişafı ilə bağlı Dövlət Turizm Agentliyi və digər QHT-lər ara-sıra müxtəlif layihələr reallaşdırırlar. Düşünürəm ki, mətbəx festivallarının sayı artırılmalıdır. Regionlarımızın milli mətbəx göstəriciləri sistemli şəkildə tanıdılmalıdır. Festivallarda tanıdılan mətbəx nümunələrinin qarşısına hər şəhərin adı yazılmalıdır. Bütün milli dəyərlərimizin tanıtımı milli geyimlər, folklor təqdimatları ilə dolğunlaşdırılmalıdır. Bu gün təşkil olunan turlarda məhz mətbəx mədəniyyətinin zənginliyinin tanıdılmasına böyük ehtiyac var.



**Turizm üzrə digər ekspert – Ceyhun Aşurov isə bildirdi ki, qastronomiya turizmi dünya üzrə trend olan sahələrdən biridir.**

– Səyahətçilər bəzi ölkələrə həm də orada çox dadlı yeyəcək-içəcəklərin olduğu üçün səfərlər edirlər. Turizmin bu növü bəzi ölkələr üçün cəlbedici faktorlardan biri kimi qəbul olunur. Azərbaycan mətbəxində kifayət qədər dadlı təamlar olduğu üçün qastroturizmi daha da inkişaf etdirmək olar. Biz bölgələrimizin mətbəxini tanıtmaqla, ölkəmizin cəlbediciliyini daha da artıra bilərik. Regionlarda qastronomiya ilə bağlı silsilə festivallar, konfranslar, seminarlar vasitəsilə təbliğatı ən yaxşı şəkildə apara bilərik. Regionlara aid unikal yeməklərin ölkə miqyasında hazırda tanıdılma prosesi gedir. Ancaq bu işi daha geniş arealda – xarici ölkələrdə də etmək lazımdır. Beynəlxalq analoji tədbirlərdə təbliğatımızı gücləndirməliyik.



**Kulinariya ekspertləri də sözügedən sektorda inkişafa nail olmaq üçün bir sıra zəruri addımların atılmasını qeyd edirlər. Məsələn, Doğan Tomris vurğuladı ki, Azərbaycan mətbəxinin daha geniş auditoriyaya çatdırılması üçün bu sahədə dəyərlərin müəyyən edilməsi, yenilənməsi və qorunması işi vacib elementdir.**

– Qastronomik dəyərlərin zamanla itməməsi üçün yerli mətbəxi dəstəkləyən, turistləri cəlb edən layihələr həyata keçirilməlidir. Qida məhsullarının dadını bütün dünyaya duyurmaqdan ötrü ənənəvi restoranlarda unudulmaq üzrə olan yeməklər xatırladılmalıdır. Düşünürəm ki, Bakıda qastroturizm festivalının keçirilməsi məqsədəuyğun olardı. Buna uyğun olaraq "Qastronomiya turizm bələdçisi" hazırlanmalıdır. Gələn turistlər üçün qastronomiya marşrutunun yaradılması sektora canlılıq gətirə bilər. Dadlı və layiqli yeməklər təqdim edən yerlərin sayının artırılması diqqətdə saxlanılmalıdır.

*Ceyhun ALIŞLI*
*XQ*

Mütəxəssis məsləhəti

# Çimərliyə gedərkən seçdiyiniz məkana və havaya diqqət edin

**Azərbaycanda çimərlik mövsümü başlayandan bəri qadağan olunmuş su hövzələrində, qeyri-çimərlik ərazilərdə boğulub həyatını itirənlər çox olub. Rəsmi qurumların yaydığı məlumata görə, boğulmalara səbəb həm də əksər hallarda insanların nəzarətsiz ərazilərdə suya girmələridir. Yalnız iyulun son 9 günündə 4 nəfər Xəzərdə batıb, 3 nəfər isə batma təhlükəsi ilə üzləşib və xilas edilib.**



Mütəxəssislər Xəzər dənizində boğulmaların səbəbini, əsasən, küləkli hava, onun Xəzərdə yaratdığı sualtı burulğanlar, küləyin suyun altına yığdığı yad cisimlər, bəzi şəxslərin suda bəhsə girib daha uzaq məsafəyə üzməyə çalışması, alkoqollu içki qəbulundan sonra suya girmək və valideynlərin uşaqlarını çox qısa müddətə olsa belə diqqətsiz qoyması ilə əlaqələndirirlər.

İqlimlə əlaqədar olaraq, Xəzərdə ilin 250 günü küləkli hava müşahidə olunur. Nəticədə dənizdə uçqun, yarğan və burulğanlar əmələ gəlir. Yaxşı xatırlayıram ki, 2000-ci ildə Bakıda baş verən zəlzələdən sonrakı illərdə dənizdə boğulmalar daha çox olurdu. Suyun dibində təpəciklər, çuxurlar yaranmışdı.

Ekspertlərin fikrincə, dənizə gedərkən hava şəraiti mütləq nəzərə alınmalıdır. Əlverişsiz hava şəraitində, küləyin sürəti saniyədə 10–12 metri, dalğaların hündürlüyü isə 1–1,5 metri ötərsə, çimərliyə getmək olmaz. Dünyada suda boğulma hallarının statistikasına görə, faktların 70 faizi məhz əlverişsiz hava şəraitində baş verib. Suda boğulmanın digər səbəbləri kimi sualtı yad cisimlərin insanları zədələməsini, sualtı yarğanları, çuxurları, burulğanları, axınları, qəfləti dərinlik, panika və müxtəlif xəstəlikləri göstərmək olar.

Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətindən bildiriblər ki, təhlükə ilə bağlı edilən bütün xəbərdarlıqlara baxmayaraq, insanlar yenə də küləkli havalarda suya girirlər. Yaxşı üzə bilən şəxslərin "bacarıramsa, deməli istədiyim yerə qədər üzə bilərəm" – deyib məsafəni hesablamaması da boğulmalara səbəbdir. Lakin adamlar sağlamlıq, insan bədənin suda verdiyi reaksiyalar, qıcolma ehtimalı kimi müxtəlif amilləri mütləq nəzərə almalıdırlar.

Mütəxəssislərin fikrincə, şimal küləyi əsərkən, dalğa hansı sürətlə sahilə gəlirsə, əks istiqamətdə suyun altı ilə əks olunması nəticəsində burulğanlar yaranır və həmin ərazidə suda olan şəxs boğulma təhlükəsi ilə üz-üzə qalır. Burulğanın şəklinə baxsaq görərik ki, o, bir qədər mailidir. Yəni burulğanın dibi ilə üzünü müqayisə etsək o ya sağa, ya da sola doğru meyillənir. Buna görə də burulğana düşərkən suya tabe olub onun dibinə getmək torpağa təmas edərək yenidən yuxarı qalxmaq lazımdır. Bu halda insanın xilas olma ehtimalı yüksək olur. Burada əsas məsələ panikaya düşməməkdir. Sularda xilasetmə əməliyyatı saniyələr tələb edir. Ona görə də kiminsə batdığını, boğulduğunu görərkən də panikaya düşmək olmaz. Xilasetmə xidmətinə boğulan şəxs barədə nə qədər tez məlumat verilsə, həmin şəxsin xilas olma şansı daha çox olur.

Suda boğulmaların 95 faizi qeyri-çimərlik ərazilərdə baş verir. Çünki bu ərazilərdə gözlənilməz təhlükələrlə qarşılaşmaq ehtimalları çoxdur. Belə ərazilərdə xilasetmə xidməti fəaliyyət göstərmir. Bu xidmət olmadıqda boğulma təhlükəsi ilə üzləşən şəxsə mütəxəssis kömək edə bilmir. Ölkə ərazisində ümumilikdə 37 xilasetmə məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrin dislokasiya ərazisində olan bütün çimərliklərdə sularda təhlükəsizlik tədbirləri xidmət tərəfindən həyata keçirilir. Onlar sayəsində hər il yüzlərlə insan boğulmaqdan xilas edilir. 25 xilasetmə məntəqəsi Bakı və Abşeron yarımadasının payına düşür. Bu məntəqələr dövlət tərəfindən ictimai çimərlik kimi nəzərdə tutulan ərazilər – Mərdəkan, Buzovna, Bilgəh, Zuğulba, Qızılqum və Pirşağıda yerləşir, Nardaran çimərliyində isə xidmətin iki xilasetmə məntəqəsi var.

Dənizə gedərkən, məkanın düzgün seçilməsi, havaya diqqət edilməsi, suya girərkən qadağan olunmuş məsafəyə qədər üzmək insanlara istirahət gətirər. Əks halda, özünüzdən sonra geridə gözüyaşlı insanlar qoya bilərsiniz. Suya girərkən bir daha düşünmək lazımdır.

*Zərifə HÜSEYNOVA*
*XQ*

Günün mövzusu

# Kompüter uşaqlarda psixoloji asılılıq və depressiya yaradır

**Son illər kompüter və mobil telefonlardan istifadə edənlərin sayı kəskin artıb. Yeni texnologiyalar aşkar üstünlüklərlə yanaşı, asılılığa meyil də yaradır, fərdin inkişafına və formalaşmasına mane olur. Bu barədə "Ahəng" psixologiya və reabilitasiya mərkəzinin rəhbəri, psixoloq Vüsalə Əmiraslanovadan müsahibə almağın faydalı olacağını düşündük.**



**– Bu gün çalışan hər kəs kimi, uşaqlar da öz həyatlarını kompütersiz təsəvvür edə bilmirlər. Öncə bunun onlar üçün faydalarından danışın.**

– Valideynlər övladlarının tərbiyəsində köhnə üsullarla (hərflərlə bloklar, tədris stolüstü oyunları, kitablar, şəkilləri olan kartlar, kartondan kəsilmiş rəqəmlər) yanaşı, daha müasir tədris metodlarından– maarifləndirici kompüter oyunlarından da istifadə edirlər. Bu oyunlar uşağın yaddaşını və diqqətini inkişaf etdirir, ona məntiqi öyrədir, yaradıcılıq bacarıqlarını formalaşdırır. Eyni zamanda, uşağa ətraf mühitlə tanış olmağa, yeni məlumatlar öyrənməyə və əylənməyə kömək edir.

Məsələn, məktəbəqədər yaşlı uşaqlar kompüterdə rəngləmə səhifələrini işləyə və ya tapmaçalar oynaya bilərlər. İbtidai sinif uşaqları üçün oxumağı və saymağı öyrənməyə kömək edən kompüter proqramları da var.

Kompüter indi yuxarı sinif məktəb proqramlarında geniş tətbiq olunur. O, yeni biliklər əldə etməyə, ev tapşırıqlarını yerinə yetirmək üçün məlumat almağa, həmçinin internet vasitəsilə dünya hadisələrindən xəbərdar olmağa, uşaqların diqqətinin dağılmasının qarşısını almağa, stressdən qorunmasına kömək edir.

**– Çox sayda üstünlüklərinə baxmayaraq, kompüter arxasında saatlarla oturmağın ziyanı da var. Yaşından asılı olaraq uşaqlar kompüter arxasında gün ərzində nə qədər vaxt keçirə bilərlər?**

– Uşaqlar üçün həyatlarının ilk illərində toxunma hissləri xüsusilə vacibdir. O, cisimləri götürərək, onları hiss edir və xassələri ilə tanış olmaqla ətrafındakı dünyanı öyrənir. Buna görə də uşaq üç yaşından əvvəl kompüterə yaxın buraxılmamalıdır. Yaxşı olar ki, 4–5 yaşından kompüterlə tədricən tanış olsun. 5 yaşına qədər isə onun arxasında gün ərzində 10 dəqiqədən çox vaxt keçirməsin. Yaş keçdikcə bu vaxt tədricən artırıla bilər. Məsələn, 6–7 yaşda uşaq həftədə 3 dəfə 20– 30 dəqiqə, 10–12 yaşda gündə təqribən 1 saat, 13–16 yaşda isə iki saatdan artıq olmamaqla kompüterdən istifadə edə bilər. Bu zaman hər 15 dəqiqədən bir fasilə verilməlidir.

Ancaq uşaqların kompüter oyunlarına ciddi şəkildə bağlı olmasına imkan verilməməlidir. Çünki onlar zehni, təfəkkürü, dünyagörüşünü inkişaf etdirən öyrədici oyunlardan daha çox, başqa oyunlara da maraq göstərirlər.

**– Kompüterdən çox istifadə uşaqlarda nə kimi neqativ hallar yaradır?**

– Bu gün uşaqlarda kompüterdən asılılıq geniş yayılıb. Müxtəlif oyunlarla tanışlıq əvvəlcə həvəs, maraq və ehtirasla müşayiət olunur. Günlər keçdikcə internet və ya kompüter oyunları daha cəlbedici olur. Uşaq onlara əlçatanlıq, qeyri-adilik və yeni hisslər yaşatmaq xüsusiyyətlərinə görə bağlanır. Və kompüter arxasında keçirdiyi vaxtı artırır. Beləliklə, uşağın dərslərə meyli azalır, daha çox əyləncə axtarır. Bütün fikirləri oyunda qalır. Beyin oyunda gedən proseslərin müzakirə mərkəzinə çevrilir. Ona görə də həmin uşaqlar daha çox ətrafdan uzaq qalmağı seçirlər. Ətrafdakı reallığa maraqları itir, küçəyə çıxmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq istəmir, aktiv həyat tərzinə və idman yarışlarına maraq göstərmirlər. Ünsiyyətə girməyən, assosial və özünəqapanan uşaqlar internetdən, videooyunlardan asılı olurlar. Onlar virtual həyatda özlərini daha komfortlu hiss edir, onu digər maraqlardan və gündəlik fəaliyyətdən üstün tuturlar. Real dünyadan uzaqlaşıb sırf virtual həyata qapanırlar ki, bu da uşaqların inkişafına, həyata marağının azalmasına səbəb olur. Tədricən onun davranışlarında emosional gərginlik, neqativ reaksiyalar müşahidə edilir. Fikir dağınıqlığından özlərini ifadə etməyə çətinlik çəkirlər.

Həmin uşaqlarda davranış pozğunluğu, reallığı qəbul etməmək problemi, vaxtı boşuna sərf etmək vərdişi yaranır. Beləliklə də psixoloji və fiziki asılılıq başlayır. Burada heç bir kimyəvi təsir olmadığına baxmayaraq, bu asılılıq narkotik və alkoqol vasitələrdən asılılığa bənzəyir.

Beləliklə, bir uşağın və ya yeniyetmənin həyatı onlayn ünsiyyət və ya kompüter oyunları ətrafında qurulur. Qalan hər şey – valideynlər, dostlar, məktəb və digər fəaliyyətlər tamamilə unudulur. Kompüterə çıxışı olmayan uşaq isə aqressiv və əsəbi olur, tez-tez depressiyaya düşür.

**– Deməli, kompüter asılılığı xəstəliklərə səbəb olur.**

– Bəli, daim kompüter arxasında oturmaq uşağın və ya yeniyetmənin fiziki sağlamlığına mənfi təsir göstərir. Birincisi, görmə pisləşir, çünki gözlər daim gərginlik altında olur. Uzun müddət ekran qarşısında oturmaq gözlərdə quruluq və yaxud yanma hissi yaradır. Uşaqların gözləri hələ tam inkişaf etmədiyi üçün daha tez yorulur. Yaxındakı əşyalar aydın görünsə də, uzaqdakılar dumanlı görünür. Bu səbəbdən uşaq eynək taxmalı olur. Bundan başqa, uşaqlar planşet və ya telefonla oynayanda, adətən, çarpayıda, yerdə uzanırlar. Bu da onların görmə qabiliyyətinə mənfi təsir göstərir.

İkincisi, kompüter uşaqların bədən quruluşuna da ziyan vurur. Çox vaxt kompüter masası uşağın boyuna uyğun olmur. Bu səbəbdən o, ekranı görə bilmədiyi üçün kürəyini əyməyə və ya boynunu çox dartmağa başlayır. Bütün bunlar onurğanın əyriliyinə gətirib çıxarır. Baş və kürək ağrılarına səbəb olur. O, hətta, bəzən osteoxondrozdan da əziyyət çəkir.

Üçüncüsü, sinir sistemi ilə bağlı problemlər ortaya çıxır. Uşaqlarda bu sistem zəif inkişaf etdiyindən uzun müddət kompüterlə ünsiyyət qurarsa, onda yuxu problemi, qəfil əhval dəyişikliyi və kəskin həyəcan yaranır. Bu, həm də uşağı əsəbi və şıltaq edir, oyunda nəticə olmayanda o, daha əsəbi olur. Xüsusilə, qəddarlıq və zorakılıq elementlərini ehtiva edən qorxu filmlərini xatırladan əyləncəli oyunlar uşağın psixikasına mənfi təsir göstərir. Eşitmə qabiliyyətinin pozulmasına, fiziki hərəkətsizliyinə səbəb olur.

**– Uşaqlarda kompüter asılılığının yaranmasında günahkar kimdir?**

– Kompüter oyunlarından və ümumiyyətlə, internetdən asılılığın səbəbini ilk növbədə valideynlərdə axtarmaq lazımdır. Əgər uşaq görəndə ki, valideyni bütün günü oturub televizora baxır, mobil telefonla məşğuldur, kompüterdə oyun oynayır və ya sadəcə internetdə xəbərlərə baxır, onda o da bu hərəkətləri təkrar etməyə başlayacaq. Digər tərəfdən, bəzi hallarda valideynlər özləri uşaqlarını bu yola sürükləyirlər. Uşaq sakit qalsın, onlara mane olmasın deyə, icazə verirlər ki, o, günün çox hissəsini kompüter arxasında keçirsin. Onun orada oynadığı oyunla, gördüyü işlə valideyn bəzən maraqlanmır. Nəticədə uşaqlar gününü oyunla keçirir, və zamanla asılılıq yaranır, bu da yaş artdıqca daha çox poblemlərə yol açır.

**– Bunun qarşısını almaq üçün nə etmək olar?**

– Övladlarımızın gələcəyini düşünürüksə, onlarla vaxt keçirməyi bacarmalıyıq. Əgər valideyn övladına zamanında vaxt ayıra bilsə, uşaq da lazımsız kompüter oyunlarına meyil etməyəcək. Yaxşı olar ki, uşaq internetdə oyun oynayanda, yaxud cizgi filminə baxanda onların yaşlarına uyğun vaxt seçilsin. Eyni zamanda, kompüterdən istifadə etməsinə və televizor qarşısında əyləşməsinə məhdudiyyət qoyulmalıdır, xüsusilə də gecə saatlarında. Həmçinin valideynlər uşaqların hansı televiziya verilişlərinə baxdıqlarına və hansı kompüter oyunlarını oynamasına nəzarət etməlidirlər. Valideynlər ailəliklə teatra, muzeyə, konsertə, kafeyə və təbiətin qoynuna getməlidirlər.

Hər bir valideyn bilməlidir ki, uşaqlar üçün ən əsas amil ana–ata ilə ünsiyyətdə olmaqdır. Onlar uşaqları ilə nə qədər çox ünsiyyətdə olsalar, bu, onların televiziyadan və internetdən az istifadə etmələrinə səbəb olar.

Bəzən belə asılılığın bir səbəbini də məktəbdə, müəllimlərin uşaqlara diqqətsiz olmalarında görürlər. Bu, yanlış fikirdir. Şagirdləri daim nəzarətdə saxlamaq, sözsüz ki, mümkün deyil. Bu məsələdə təkcə müəllimlər deyil, bütöv cəmiyyət əl-ələ verməlidir. Hüquq-mühafizə orqanlarının internet klublara nəzarəti artmalıdır.

*Müsahibəni hazırladılar:*
*Zərifə BƏŞİRQIZI,*
*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Xalq TV-nin qonaqları

# “Mənim üçün dünyanın bütün ağrı-acıları və arzuları türkçülükdən başlayıb”

**Budəfəki qonağımız 30 ildən çox Vətəndən uzaqlarda yaşasa da, Azərbaycanı layiqincə təmsil edən, Moskva Dövlət Linqvistika Universitetinin professoru, Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin sədri, filologiya elmləri doktoru, Əməkdar elm xadimi Tofiq Məliklidir.**



Həmsöhbətimiz 15 elmi monoqrafiyanın, Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığına həsr olunmuş 200-ə yaxın elmi məqalənin müəllifidir. O, Nazim Hikmət, Fazil Hüsnü Dağlarca, Yaşar Kamal, Orxan Pamuk, Fakir Baykurt, Əziz Nesin və başqa Türkiyə ədəbi mühitinin görkəmli yazarlarının əsərlərini rus və Azərbaycan dilinə tərcümə etmişdir. Əsas elmi fəaliyyəti Türkiyə filologiyasının elmi-nəzəri, fundamental nəzəriyyəsinin öyrənilməsinə həsr olunmuşdur. Şərqşünas alim iki poetik kitabın və bir neçə elmi fundamental araşdırmalara həsr olunmuş kitabların müəllifidir. Onun əsərləri bir çox xarici dillərə tərcümə edilmişdir.

***- Tofiq müəllim, necə oldu ki, sovet dövründə – 1968-ci ildə namizədlik mövzusunu türk poeziyasına həsr etdiniz?***

- Məşhur bir deyim var: “Hər şey ailədən başlanır”. Bu, çox qiymətli fikirdir. Uşaq ailədə nə görür, nə eşidir, inanın, bütün baş verənlər yaddaşına lent yazısı kimi həkk olur. Mənim uşaqlığım elə bir mühitdə keçib ki, Azərbaycanın fədakar və qeyrətli kişilərini evimizdə görmüşəm. Dayım elm yolunda bütün məhrumiyyətlərə dözən akademik Həmid Araslı mənim şərqşünaslığı, türkologiyanı, tərcüməçiliyi seçməyimdə misilsiz rol oynayıb. Azərbaycan ədəbiyyatşünaslığının korifeylərindən olan bu böyük alim hələ sovet rejimi zamanı cəsarətlə milli-mənəvi köklərimizə bağlı olan filologiya elminin fundamental əsaslarının gənc nəslə tədris olunmasında, “Biz kimik, hardan gəlmişik?” – sualının cavabının tarixi məxəzlərdən öyrənilməsində vətəndaş mövqeyi nümayiş etdirməklə, məni də belə bir düşündürücü elm sahəsinə hazırlayıb.

***- Bəs, o zamankı sərt rejimdən qorxmurdunuz?***

- Bilirdim ki, böyük bir yola çıxmışam. Nəinki çətinliklər olar, hətta gözlənilməz hadisələr də baş verə bilərdi. Yəni mən hər şeyi gözümə almışdım. Amma milli ruhda düşünən, humanist türkoloqların əhatəsində olduğuma görə qorxmurdum. Bir həqiqəti bilməyinizi istərdim: insanın qarşısına qoyduğu son məqsədə çatmağı üçün onun cəsarəti misilsiz rol oynayır. Qalibiyyət elə bir hissdir ki, onun mayası, nüvə mərkəzi cəsarətdir. Mən qəti olaraq belə bir qərara gəldim ki, qorxu hissini özümdən kənarlaşdırmalıyam. Həqiqəti deyirəm, SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda çalışan azman alimlərin böyüklüyü onda idi ki, onlar son dərəcə qətiyyətli, qorxmaz elm fədailəri idi. Bu mühit məni elə yetişdirib formalaşdırdı ki, türk sözünü yazmaqdan və deməkdən qətiyyən çəkinmədim.

Ədəbiyyat mənəviyyatdır. Ədəbiyyat keçmişimizi və gələcəyimizi birləşdirən varlıqdır, ünsiyyətdir. Bu baxımdan ədəbi bağlar, baxışlar vasitəsilə bir-birimizin ədəbiyyatımızı öyrənib, təbliğ etməliydik. Mənim 60-cı illər türk poeziyasına müraciət etməyim sovet ideologiyasına görə avantürist hərəkət idi. Rəhmətlik elmi rəhbərim, professor Əkbər Babayev məni bu mövzunu yazmaqdan uzaqlaşdırmağa çalışırdı. O deyirdi ki, hətta sən yazsan belə, bu işi qəbul etməyəcəklər. Amma inadkarlıq, qətiyyət öz işini gördü. İki ilə dissertasiyanı tamamladım, müdafiə etdim və 26 yaşımda elmlər namizədi elmi dərəcəsini aldım. Çox hadisələr baş verdi. Amma türk sözünün yazıldığı elmi işimlə öyünürdüm. SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutu tarixində bu, ilk cəsarətli elmi müdafiə idi. 25 il mən bu akademiyada çalışmışam. Orada Rüstəm Əliyev, Qəzənfər Əliyev – “Şahnamə”ni rus dilinə tərcümə edən böyük alim, tarixçi Saleh Əliyev və ən gənc alim olan mən Azərbaycanın varlığını yaşadırdıq, sözümüzü deyirdik. Bu gün biz 400 milyonluq türk dünyasının üzvüyük. İmperiyalar yaratmış xalqın nümayəndəsiyik. Bunları bildikdən sonra xalqına, dövlətinə, dilinə münasibət başqa cür olur, qürur hissi ilə yaşayırsan. Uzun illər SSRİ-nin Türkologiya Komitəsində sədr müavini işləmişəm və həmişə də çalışmışam ki, türkün tarixini bütün əzəməti ilə türkdilli xalqlara çatdıra bilim. “Kitabi-Dədə Qorqud”un türk abidəsi kimi əvəzsiz bir mənbə olduğunu harada çalışmağımdan asılı olmayaraq, təbliğ etməyə çalışmışam.

***- Çünki “Kitabi-Dədə Qorqud” bütün Türk dünyasının ortaq abidəsidir.***

- Əlbəttə, bu abidədə bütün türk xalqları özünün keçmişini görə bilər. Mahmud Kaşğarinin “Divani Lüğətit–türk” əsəri Xalid Səid Xocayev tərəfindən tərcümə olunmuş, lakin repressiya illərində yoxa çıxmışdır. Bu o Xalid Səid Xocayevdir ki, böyük klassikimiz Hüseyn Cavidlə eyni gündə gecə saatlarında həbs olunub. Cavid sürgün edilib, o isə güllələnib. Ötən il bu əsərin əlyazmalarının Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunun arxivindən tapılması bütün türkoloqları sevindirib.

***- Siz uzun illər Moskva Dövlət Linqvistika Universitetində dərs demisiniz. Eləcə də universitetdə “Türk dili və Mədəniyyəti Mərkəzi”ni açmısınız. Doğrudan da, qarşınıza qoyduğunuz məqsədə doğru irəliləmisiniz. Siz həm də Rusiyada yaşayan azərbaycanlıların birliyi naminə “Ocaq” Cəmiyyəti yaratmısınız. Bu cəmiyyət nə iş görə bildi?***

- Bayaqdan türk birliyi naminə həyata keçirmək istədiyim işlərdən danışıram. Həm də kövrəlirəm. Çünki mən uzun illər türk sözünə həsrət qalmış insanları bir yerdə görmək istəmişəm. Mənim üçün dünyanın bütün ağrıları, arzuları, kədərləri türkçülükdən başlanıb. Çünki türkün bir ayağı Altaylarda, Yenisey sahillərində, bir ayağı da Qara dənizdə, Xəzərboyu sahillərdə, Zəngəzurda, Qarabağdadır. Türk ayağa qalxanda, bir olanda əzəmətli olur. Mən bütün ömrüm boyu türk xalqlarının birliyini düşünmüşəm və bu yolda qarşıma çıxan tikanlı məftillərin “qanlı boyasından” qorxmamışam. Elə buna görə də 1988-ci ildə bütün SSRİ məkanı çalxalananda “Ocaq” cəmiyyətini yaratdım. 30 il “Ocaq” Rusiyada azərbaycanlıların isti evi, ata ocağı oldu. 1990-cı ildə məhz bizim cəmiyyətin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gəlib, bəyan etdi ki, xalqımız öz istiqlalı, azadlığı uğrunda mübarizəyə qalxıb. Heydər Əliyev bu çıxışı ilə bütün dünyaya icmarıc verdi ki, Azərbaycan kimsəsiz deyil, o, xalqının arxasındadır. Bu, böyük tarixdir. Biz bu tarixdən dərs almalıyıq. “Ocaq” cəmiyyəti 30 il ərzində Azərbaycanın ictimai, mədəni və siyasi tarixində baş verən hadisələri işıqlandıranda, təbliğ edəndə böyük türk əqidəsinə, Azərbaycan sevgisinə sadiq qaldı. Bəli, “Ocaq” 30 il ərzində Azərbaycan xalqının birliyinin Ocağına çevrildi. Mən uzun müddət Moskva hökuməti nəzdində millətlərarası Qurumun nümayəndəsi olmuşam və onlarla da sıx əlaqələrim olub. Çalışmışam ki, diaspor fəaliyyətini gücləndirim. Mədəni əlaqələr, mədəniyyət sərhəd tanımır.

Bir məlumatı da verim ki, bir neçə gün öncə “Ocaq” cəmiyyətinin fəaliyyətinin davamı olaraq, “Vətən” jurnalı işıq üzü görüb. Bu dərgi Rusiyada yaşayan azərbaycanlıların mənəvi tələbatını ödəyən, milli birliyimizin qüvvətlənməsinə xidmət edən mənəvi “Ocağ”ımızda yanan şamın işığıdır.

***-Maraqlı müsahibə üçün çox sağ olun.***

***Kəmalə ABDİNOVA***
***XQ***

**(Müsahibəyə bütövlükdə “YouTube”də baxmaq olar)**

Yeni kitablar

**Tanınmış jurnalist və elmi işçi, “Elm və həyat” jurnalının redaktor müavini olmuş Ülkər Hüseynovanın “Vətənə xidmətin alimlik etalonu” kitabı qarşımızdadır. Topluda onun 60 illik ömür-gün dostu olmuş görkəmli alim və mətbuat tədqiqatçısı, “Şərəf” ordenli Əməkdar jurnalist Şirməmməd Hüseynovun vəfatından sonra mediada haqqında çap edilmiş məqalələr, mərhumla bağlı həzin xatirələr və özünün müəyyən yazıları yer alıb.**

# Milli məfkurə etalonu




Kitaba baxıram və yadıma uzaq tələbəlik dövrüm düşür, gözlərim önündə universitetin jurnalistika fakültəsində son dərəcə cəsarətli, cəlbedici, azca duyulan şirin ləhcəli mühazirələri ilə könüllərimizi fəth edən Şirməmməd müəllimin obrazı canlanır. Onda 70-ci illərin sonu – 80-ci illərin əvvəlləri, kommunist rejiminin tüğyan etdiyi vaxtlar idi və heç də hər müəllim nələrəsə münasibətini onun kimi açıq söyləyə bilməzdi. Elə buna görə də hamımız Şirməmməd müəllimi daha çox sevir, hər sözünü, kəlməsini eşidib yadda saxlamağı qənimət bilirdik. Onun mətbuat tariximizlə bağlı araşdırıb təqdim etdiyi faktlardan indi də bəhrələnir, milli mənlik şüurumuzu oyadan fikirlərinə indi də istinad edirik. Yüzlərlə jurnalistin ustadı olmuş Şirməmməd Hüseynov Azərbaycan Xalq Cümhuriyyətinin, o cümlədən Rəsulzadə irsinin öyrənilib təbliğ edilməsinin cığıraçanlarından idi və bununla qürur duyurdu. Müəllifi olduğu “Milli haqq və ədalət axtarışında”, “Mənəvi irsimiz və gerçəklik”, eləcə də başqa kitablarının təkcə adları onun alim və ziyalı kimi hansı məfkurənin sahibi olduğunu göstərir.

Sözügedən nəşrdə elmi jurnalistikamızın cəfakeşi sayılan Ülkər xanım Hüseynovanın qələminin məhsulu olan yazılar, Şirməmməd Hüseynovun vəfatından sonra onun adına təsis edilmiş illik media mükafatı və laureatları barədə materiallar da təqdim olunur. Bu mükafata layiq görülən ünlü şəxsiyyətlər – diplomat, diaspor fəalı, araşdırmaçı Ramiz Abutalıbov, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, alim-diplomat Vilayət Quliyev və AXC qurucularından olmuş Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, görkəmli rəssam Rais Rəsulzadə haqqında maraqlı bilgilər verilir.

Əməkdar jurnalist Əflatun Amaşovun “Azərbaycana xidmətin alimlik etalonu” məqaləsində jurnalistikamızın patriarxı Şirməmməd Hüseynovun çağdaş tariximiz naminə fədakar əməyi mənəvi dünyamızın, varlığımızın gələcək nəsillərə miras qalan misilsiz irs kimi dəyərləndirilir. Uzun illər onunla birlikdə çalışmış BDU-nun mərhum professoru Nəsir Əhmədlinin “Jurnalistikanın halallıq ənənəsi” xatirəsi, Fazil Mustafanın dəyərləndirməsi, Şirməmməd müəllimlə müsahibələrin mətnləri, ona həsr olunmuş “Cümhuriyyət adamı” (Nadir Yalçın), “İstiqlalın işığında” (Məsaim Abdullayev) kitabları haqqında qeydlər, Ramiz Orsərin “Mətbuatımızın və jurnalistikamızın Şirməmməd Hüseynov məktəbi” portret oçerki, yubiley məclislərində söylənilənlər, həmçinin vida sözləri, tədqiqatları haqqında yazılar ilk baxışdan diqqət çəkir. “Xalq qəzeti”, “Azərbaycan”, “Respublika”, “525-ci qəzet”, “Ədəbiyyat qəzeti”, “Mədəniyyət” və digər nəşrlərdə işıq üzü görmüş dəyərli materiallar kitabda bir yerə toplanıb.

Ülkər Hüseynovanın təqdimatında Şirməmməd müəllimin arxivindən tapılmış “Nə etməliyik” adlı yazının müəllifi, repressiya qurbanı Ömər Faiq Nemanzadənin mübarizəsi, düşüncələri izahlarda geniş əksini tapıb. Eləcə də Şirməmməd Hüseynovun müxtəlif illərdə mətbuatda və çap olunmuş kitablarda getmiş xatirə yazılarına qayıdış da təqdirəlayiqdir. Burada dahi Üzeyir Hacıbəyli, Hacıbala bəy Nağıbəyov, Şıxəli Qurbanov, Nurəddin Rzayev kimi şəxsiyyətlər bir daha yad edilir.

Kitabda Ülkər xanımın da özəl məqalələri yer alıb və bunlar onun unudulmaz ömür-gün dostu ilə qoşa qanad kimi layiqli bir cütlük təşkil etdiyinin bilavasitə göstəricisidir. “Uzaq keçmişi öyrənən elm”, “Lütfi Zadə fenomeni”, “Zümrüdü rəngin sehri”, “Elm və həyat”, “50 ildə”, “İşıq”ın baş redaktoru Xədicə xanım haqqında və digər nümunələr belə deməyə imkan verir.

“Vətənə xidmətin alimlik etalonu”nda professor Qulu Məhərrəmlinin, Məmməd Əfşanın, Zərxanım Əhmədlinin, Qiymət Məhərrəmlinin, Vüqar Əhmədin Şirməmməd müəllimdən bəhs edən essevari yazıları da maraqla oxunur. Kitabda, həmçinin “Tərcümələr”, “Haqqımızda yazılanlar” kimi başlıqlarda bir sıra maraqlı yazılar toplanıb.

İnanırıq ki, Ülkər Hüseynovanın “Vətənə xidmətin alimlik etalonu” kitabı həssas oxucu diqqətindən kənarda qalmayacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Nur şəhərinin sönməyən ulduzu

## *İsa Alimovun əziz xatirəsinə*

**Teatr hər zaman incəsənətə istedadların şöləsində böyük sənət fədailərini bəxş edib. Onlar da gecəni gündüzə qataraq, sənət naminə əllərindən gələni ediblər. Belə sənətkarlardan biri də Mingəçevir Dövlət Dram Teatrının qocaman səhnə ustası, mərhum İsa Heydər oğlu Alimovdur.**



İsa Heydər oğlu Alimov 1942-ci il iyul ayının 1-də Şəkidə anadan olub. Orta təhsilini Şəkidə bitirdikdən sonra Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun “Mədəni-maarif” fakültəsinin qiyabi şöbəsinə daxil olub və oranı fərqlənmə diplimu ilə bitirib. Bir müddət Şəki Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

1968-ci ildə Mingəçevir mədəniyyət sarayının nəzdində fəaliyyət göstərən Xalq teatrının bazasında Mingəçevir Dövlət Dram Teatrı yaradılıb və 1969-cu ilin martında – “Beynəlxalq Teatr Günü” ərəfəsində teatr öz pərdələrini Cəfər Cabbarlının “Almaz” pyesinin ilk tamaşası ilə açıb. Məhz həmin ildə İsa Alimov Şəki Dövlət Dram Teatrından Mingəçevir Dövlət Dram Teatrına gəlib və ömrünün sonuna kimi bu teatrda aktyor, eləçə də rejissor kimi fəaliyyət göstərib.

C.Cabbarlının “Almaz” dramında Şərif, “Solğun çiçəklər”də Bəhram, N.Qoqolun “Müfətiş”ində Xlestakov, G.Figeyredonun “Tülkü və üzüm”ündə Ksanf, S.S.Axundovun “Eşq və intiqam”ında Çingiz, S.Vurğunun “Vaqif”ində Qacar obrazları bir aktyor kimi İsa Alimovun Mingəçevir Dövlət Dram Teatrının səhnəsində yaratdığı orijinal səpkili obrazlar silsiləsinə daxildir. Onun oynadığı rollar həmişə tamaşaçıları düşündürüb və alqışlarla qarşılanıb.

Mingəçevir Dövlət Dram Teatrının qocaman səhnə ustası, Xalq artisti Ella Yaqubova sənət dostu haqqında xatirələrini danışararaq deyib: “Mən onunla 50 il çiyin-çiyinə işləmişəm. İsa müəllim çox mehriban, sakit, sənətini sevən, kollektivdə xüsusi hörməti olan bir şəxsiyyət olub. Teatrımızda fəaliyyət göstərən gənc aktyorların yetişdirilməsində İsa Alimovun xidmətləri böyükdür. O, hər zaman gənclərin teatr studiyasına cəlb olunması üçün böyük səy göstərib. Gələcək aktyorlara səhnə texnikasından, hərəkətindən və ümumiyyətlə teatr sənətindən dərslərin keçirilməsində əməyi böyük olub. İsa Alimov hər zaman sadiq dost, səmimi yoldaş, istedadlı tərəf-müqabil kimi xatirələrdə yaşayacaq”.

Mingəçevir Dövlət Dram Teatrının səhnəsində İsa Alimov 15-ə yaxın əsərə rejissor kimi səhnə həyatı bəxş edib. Onun rejissor traktofkasında hər zaman əsərin bədii ideyası tam formada öz dolğunluğu ilə diqqət mərkəzində olub.

Yazıçı-dramaturq Firuz Mustafanın eyniadlı əsəri əsasında Mingəçevir Dövlət Dram Teatrının səhnəsində hazırlanan “Vida marşı” 2 hissəli komediyası “Milli Teatr Festivalı – 2010” layihəsi çərçivəsində məhz İsa Alimovun quruluşunda böyük uğurla nümayiş olunub. Rejissor İsa Alimov bu quruluşunda müəllif ideyasına uyğun olaraq valideyn və övlad münasibətlərini, övladların doğma atalarına laqeyid baxışlarını ön plana çəkib. Rejissor öz traktofkasında xəstə atanın qeydinə qalmaq əvəzinə, mirasına sahib çıxmaq üçün onun ölümünü gözləyən tamahkar övladların xislətini acıb göstərməklə, onların ifşa olunmasını böyük ustalıqla təqdim edə bilib.

Firuz Mustafanın “Dəhliz”, Q.Aslanovun “İfritə”, Rober Tomanın “Tələ” və başqa əsərləri bir rejissor olaraq İsa Alimovun quruluşlarında Mingəçevir Dövlət Dram Teatrının repertuar zənginliyini təmin edib.

İsa Alimov ötən XX əsrin 90-cı illərində bir müddət teatrın direktoru vəzifəsində çalışıb, təşkilatçılıq bacarığını göstərə bilib. O, Azərabaycan Teatr Xadimləri İttifaqının üzvü kimi də fəal olub.

Alimov eləçə də mənfur düşmənlərimiz olan ermənilərin Azərbaycana qarşı yürütdüyü haqsızlığa da laqeyd qala bilməyib. O, Birinci Qarabağ müharibəsinin baş leytenant rütbəli veteranı idi.

Bir neçə il əvvəl dünyasını dəyişmiş sənət fədaisi, səmimi dost, alicənab insan olan İsa Alimov teatr ictimaiyyətinin və eləçə də tamaşaçılarının qəlbində əbədi yaşayaçaq.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

# Riki Martin Bakıda ana dilimizdə danışdı

**Dünyaca məşhur superulduz Riki Martin ilk dəfə Bakıda solo konsert proqramı ilə çıxış edib.**

Fərəhli haldır ki, dənizkənarı “Sea Breeze”də reallaşan gecədə diqqəti ilk olaraq cəlb edən cəhət sənətçinin tamaşaçıları Azərbaycan dilində salamlaması olub. Rikinin “Salam, necəsiniz?” – deyə auditoriyaya müraciət etməsi gurultulu alqışlara səbəb olub. Sonra o, çıxışına ingilis dilində davam edib: “Çox sağ olun. Burada olmaqdan çox məmnunam. Düşünürəm ki, sizin enerjiniz sayəsində gözəl bir axşam olacaq. Bu gecə mənim hekayət gecəmdir. Musiqi vasitəsilə hekayətim təqdim olunacaq. Yüksəlişlərim və enmələrim, enerjim, sevincli-kədərli anlarım... Bu axşam hər şey burada – Bakıda olacaq. Mən yaxşı vaxt keçirmək üçün buradayam. Bakı, yaxşı vaxt keçirməyə hazırsınız? Sizdən dönə-dönə soruşacağam”.



Gecədə hitlərini və sevimli mahnılarını oxuyan Latın Amerikası musiqisinin dünyaca tanınmış ulduzu qonaqlara inanılmaz anlar yaşadıb. Sonda isə Riki Martin pərəstişkarlarına yenə də bizim ana dilimizdə “Çox sağ olun” – deyib.

Konsert böyük izdihamla keçib. Onu izləyənlər “Sea Breeze”ni zəngin təəssüratla tərk ediblər. Tamaşaçılar deyiblər: “Adı musiqi dünyasının simvoluna çevrilən əfsanəvi müğənni və aktyor Bakıda ilk dəfə olaraq möhtəşəm ifası ilə pərəstişkarlarını xeyli sevindirdi”. “Riki Martinin konsertləri dünyanın 60-dan çox ölkəsində baş tutub və indi o, Bakı ictimaiyyətinin qəlbini fəth etdi”. Tədbir yüksək xidmət standartları və mükəmməl infrastrukturu ilə tanınan Sea Breeze Resort-un ərazisində keçirildi. Unudulmaz bir atmosfer vardı”.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# ABŞ-da seçkilər: Rəqiblər teledebata hazırlaşırlar

**Bu il noyabrın 5-də dünyanın super dövləti sayılan ABŞ-da növbəti prezident seçkiləri keçiriləcək. Hazırkı seçkilər ölkə tarixinin ən gərgin, taleyüklü seçkilərindən hesab olunur. Amma səsvermə gününə 3 ay 1 gün qalmasına baxmayaraq, elektoratın aşkar favoriti yoxdur. Bu səbəbdən indidən kimin qalib gələcəyini proqnozlaşdırmaq çox çətindir.**

Reallıq budur ki, hazırda dünya siyasətində bir çalxalanma var və proseslərin sonrakı gedişatı üçün gələn il yanvarın 20-də Ağ evdə prezidentlik kürsüsündə kimin əyləşəcəyindən çox şey asılıdır. Bu gün planetimizdə yeni dünya düzəni formalaşır. Bu, göründüyü kimi çox ağrılı prosesdir. Yer kürəsinin çox yerində irili-xırdalı münaqişələr, "proksi" müharibələr baş verir.

Dünyanın təkqütlü və çoxqütblü olacağını zaman göstərəcək. Dava yorğan davasıdır. ABŞ əvvəlki hegemonluğunu qoruyub saxlamağa cəhd edir. "Səmavi dövlət", yəni Çin dünyanın idarə olunması prosesində özünə daha çox pay umur. "Qlobal cənub" siyasi səhnədə aparıcı rollardan birini oyanamağa iddialıdır. Hələlik, ümumi qaydaları müəyyənləşdirmək mümkün olmur.

Dünya gücləri öz aralarında dil tapa biləcəklərmi? Bu sual indi heç də ritorik məna daşımır. Əks halda hazırkı qlobal xaos və özbaşınalıqlar daha da dərinləşəcək. Yaxın və uzaq qonşuları nüvə silahı ilə hədələyən dövlətlər var. Bütün bunlar, təbii ki, bəşəriyyəti ciddi narahat edir.

Şübhə yoxdur ki, Amerikadakı noyabrda keçiriləcək seçkilərin nəticələri yeni dünya düzəninə ciddi təsir göstərəcək. Bir çoxları ümid edir ki, Birləşmiş Ştatların yeni hökuməti heç olmasa bundan sonra dost və rəqib ölkələrə münasibətdə daha ədalətli mövqe sərgiləyə bilər və bunu zatən etməlidir. Onların fikrincə, rəsmi Vaşinqtonun dünyanı taleyi üçün xüsusi missiyası var. Yeri gəlmişkən, bu yanaşmanın bir blef olduğunu düşünənlər də az deyil.

ABŞ siyasətçilərinin başı isə seçkilərə qarışıb. Okeanın o tayında prezidentliyə namizədlər başa düşürlər ki, ölkənin ən ali postuna yiyələnmək üçün gərək ortaya gərgin səylər qoyasan, özünə rəqibindən daha çox sayda tərəfdaş toplaya biləsən. Məhz bu məramla respublikaçı namizəd Donald Tramp və demokratların ehtimal edilən namizədi Kamala Harris təşviqat görüşlərinə davam edirlər. Təbii ki, tərəflər təbliğat və təşviqat prosesində rəqibini zəifləməyə çalışırlar.

Tramp Harrisə qarşı daha sərt leksokonla çıxış edir. Onu başa düşmək olar. İyulun 21-də Baydenin seçkilərdən geri çəkilməsi, hazırkı vitse-prezidentin namizədliyini irəli sürməsi Trampı və onun komandasını kifayət qədər çətin vəziyyətə salıb. Əgər o, bundan qabaq rəqibinin yaşlı və taqətsiz olduğuna tez-tez eyhamlar vurdusa, indi situasiya tamamilə dəyişib. Axı, 59 yaşlı Harris özündən 19 yaş böyük olan Trampdan daha enerjili təsir bağışlayır.

Tramp dünən Pensilvaniya ştatında seçicilərinə görüşü zamanı Harrisin saxtakar olduğunu deyib: "Radikal solçu Demokratlar Partiyasının rəhbərləri yalnız özləri üçün mübarizə aparacaq marionet namizəd təyin ediblər. Kamala sıfır səs qazanıb. O, çıxışları əvvəlcədən yazılan və bizim hökuməti dağıdacaq milyardlarla dollar qazanan donor və güc sahibləri tərəfindən idarə olunur."

Bəllidir ki, Harrisin anası hindistanlı, atası yamaykalıdır. Tramp hesab edir ki, prezidentliyə namizədliyini irəli sürməzdən əvvəl hazırkı vitse-prezident qara irqdən olduğunu dilə gətirmirdi. İndi isə, əksinə, özünü qara dərili seçicilərin dostu və



himayədarı kimi təqdim edir: "O həmişə Hindistan mədəniyyətindən olduğunu nümayiş etdirir, onu təbliğ edirdi. Mən son illərə qədər onun qara olduğunu bilmirdim. O, birdən qara oldu və qara olaraq tanınmaq istədi. Ona görə də bilmirəm, hindistanlıdır, ya qaradır?"

Həqiqətən, Harris uzun müddət özünü həm qara, həm də Cənubi Asiya amerikalısı kimi təqdim edib. Böyük ehtimalla qara dərili vətəndaşlar onu dəstəkləyəcəklər. Düzdür, seçkilərin finişinə hələ xeyli var. Fakt budur ki, Harris çox qısa müddət ərzində Trampla Bayden arasındakı seçki rəqbəti "kəsiri"ni azalda bilib və bir çox hallarda irəli çıxıb. Üstəlik, demokratlar xeyli maliyyə vəsaiti də toplaya biliblər.

Harrisin seçkilərə qatılması seçkiqabağı kampaniyaya bir dinamizm gətirib. Ölkə əhalisinin də seçkilərə marağı artıb. Vitse-prezident seçicilərlə görüşü zamanı bu faktı xüsusi vurğulayır: "Seçki yarışında ətalət dəyişir və Trampın bunu hiss etdiyinə işarələr var. Siz də yəqin fikir vermisiniz".

Bu günlərdə ABŞ-də çox sayda rəy sorğuları təşkil edilir. Məsələn, "Bloomberg News" və "Morning Consult" nəşrlərinin sorğuları rəqiblərin şanslarının bərabər olduğunu göstərir. Görünən budur ki, ölkədə siyasi ehtiraslar kəskin qızışır.

Bəli, seçkiqabağı kampaniyada rəqabət qızışır və rəqiblər bir-birinin bostanına daha çox "daş atmağa" cəhd edirlər. Harris çərşənbə günü Corciyadakı seçki yürüşündə Trampın onun barəsində deyəcək "çox sözü"nün olduğunu", amma debata getmək istəmədiyini deyib: "Yaxşı, Donald. Ümid edirəm ki, sən mənimlə debat səhnəsinə çıxacaqsan. Çünki, məşhur sözdə deyildiyi kimi – sözün varsa, üzümə de."

Xatırladaq ki, Trampla Bayden arasında bir dəfə teledebat olmuşdur. O zaman Ağ evin hazırkı sahibi söz "duel"ində rəqibinə uduzmuş kimi təsir bağışlamışdı. Keçmiş prokuror olan Harris teledebatda rəqibini üstələcəyinə əmindir. Vitse-prezidentin intellekti və bilik səviyyəsi daha yüksək qiymətləndirilir.

Demokratların qurultayı avqustun 19-da Çikaqoda başlayacaq və 3 gün davam edəcək. Böyük ehtimalla Harris partiyanın vahid namizədi elan ediləcək. Gözlənilir ki, yaxın günlərdə Harris özünə vitse-prezident olacaq şəxsin adını elan edəcək.

Trampın vitse-prezident seçimi uğursuz hesab olunur. Belə ki, Ohayo ştatından olan senator Ceyms Devid Vens bir çox ümummili məsələlərdə Trampın özündən daha qatı millətçi, mühafizəkar siyasətçi təsiri bağışlayır. Bu, elektoratın bir hissəsinin itirilməsinə səbəb ola bilər.

Yeri gəlmişkən, yazı dərcə hazırlanarkən məlum oldu ki, Tramp rəqib partiyanın namizədi Harrislə debat keçirmək üçün "Fox News" telakanalı ilə razılaşıb. "Mən "Fox News" ilə sentyabrın 4-də Kamala Harrislə debat üçün razılaşdım", -deyə Tramp bildirib. Görüşün Pensilvaniya ştatında baş tutacağı məlum olsa da, hələlik dəqiq saat müəyyənləşdirilməyib.

Qeyd etmək lazımdır ki, "Fox News" telekanalı ötən seçkilərdə də Trampı dəstəkləmişdi. Bütövlükdə isə, Trampın ABŞ mediası ilə münasibətləri kifayət qədər gərgindir. Hətta ehtimal olunur ki, Tramp prezident seçildiyi kampaniya zamanı mediadan dəstəkdən çox zərbə alıb. Amma milyarder sosial şəbəkələrin imkanlarından istifadə etməyi bacarıb.

Bu dəfə tale kimi üzünə güləcək, Trampın, yoxsa Harrisin? Amerikada ən təcrübəli seçki texnoloqları belə bunu birmənalı şəkildə bəyan etməyə cəsarət etmirlər. Yaxşısı budur, biz də gözləyək.

***Məsaim ABDULLAYEV***
***XQ***

Qafqaz şəhərləri

# Tbilisi "isti su" deməkdir

## Ancaq bu şəhərdə isti suyu bir yerdə, isti münasibəti isə çox gördük

**Əslində, bu rubrikanı "Xalq qəzeti"ndə verilmiş "Soçi – bir Qafqaz nağılı, Qara dəniz nəğməsi..." sərlövhəli yazıdan sonra davam etdirmək qərarına gəldim. Siyasətdən kənar, xüsusi maraq və ya məqsədi olmayan bu rubrikada şimallı – cənublu bütün Qafqazın bəzi şəhərlərinin maraqlı məqamlarını qələmə almaq niyyətindəyəm. Seçidən sonra növbə Tbilisi, Dərbənd, Gəncə, İrəvan, Naxçıvan, Qroznı... şəhərlərinindir.**



... Mən bu şəhəri hələ gənclik illərimdən ona görə sevirdim ki, çar Rusiyası dövründə görkəmli soydaşlarımızın bir çoxu elm, maarif, mədəniyyət və dünya ilə tanışlıq arxasınca yola çıxanda ən münasib ünvan kimi buranı seçib. Bu şəhər mənim üçün ona görə əzizdir ki, XX əsrin əvvəlində müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti məhz Tbilisidə elan edilmişdir. Tbilisini ona görə görmək istəyirdim ki, orada bir çox görkəmli soydaşımızın məzarı, heykəli və ya adına küçələr var. Tbilisi mənə bir də ona görə maraqlıdır ki, burada Kürün üstündən o taya, bu taya dəfələrlə keçmək üçün istənilən qədər körpü var.

... Bu gözəl şəhərdə qaldığımız otel bizim İçəri şəhəri xatırladan qədimi yaşayış yerində, sahilə yaxın olduğuna görə gecə vaxtı da Barataşvili küçəsindəki körpü ilə Kürün o biri sahilinə keçir (o biri tayda Mixeil Saakaşvili dövründə tikilmiş möhtəşəm kilsə var idi), xeyli gəzib-dolaşıb, "Sülh" körpüsündən (onu da Saakaşvili inşa etdirmişdir) keçərək otelə qayıdırdıq. Yəni tarixən çoxsaylı soydaşlarımızın yaşadığı Şeytanbazar meydanı da yaxında idi, məscid də, Heydər Əliyev parkı da, "Ay ləv yu Tbilisi" restoranı da. Üstəlik, Gürcüstan paytaxtının adını özündə əks etdirən "İsti su" Sağlamlıq Mərkəzi də. Bir az aralıda isə az qala dünyanın hər yerindən gəlmiş turistlərlə dolu dərənin o biri başındakı şəlalə də. Şəlalə barədə bir az sonra söz açacağıq.

Meydanda – Şeytanbazar məhəlləsində gəzərkən elə güman edirdim ki, haqqında hələ orta məktəb və institut illərində eşitdiyim və ya oxuduğum görkəmli soydaşlarımızın ruhuna salam verirəm. Elə bilirdim ki, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyov, Hüseyn Cavid, Abdulla Şaiq, Hüseyn Ərəblinski, Firudin bəy Köçərli, Sidqi Ruhulla, Ülvi Rəcəb, Ömər Faiq Nemanzadə, Mustafa Mərdanov və indi adını xatırlaya bilmədiyim digər böyük şəxsiyyətlərin məzarını ziyarət edirəm.

Gözüm adını və ünvanını bilmədiyim bir binanı axtarırdı. İnstitut illərində müəllimimiz – "Azərbaycan teatr tarixi" kitabının müəllifi Mahmud Allahverdiyev danışırdı ki (Mahmud müəllim özü də gürcüstanlı idi və gürcü dilini bilirdi), 1872-ci ildə azərbaycanlı sənət xadimləri Tiflisdə (o zaman Tbilisi sözü işlədilmirdi) Azərbaycan türkcəsində ilk teatr tamaşası göstərmişdilər. Belə ki, həmin il Mirzə Fətəli Axundovun əsərlərindən biri (indi adını xatırlaya bilmirəm) Tiflisin məşhur karvansaralarından birində səhnələşdirilmişdi. Yəni həmin faktla Tiflis Azərbaycan Teatrının və bütövlükdə, milli teatrımızın tarixi başlamışdır. İndi bütün küçələrdə gözüm o karvansaranı axtarsa da, görə bilmədim.

Həmin "axtarış" mənim İncəsənət İnstitutunun məzunu olduğuma görə beynimdə özünə yer eləmişdi. Ancaq jurnalist kimi də maraq dairəmdə olan məqamlar az deyildi. Yəni "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Molla Nəsrəddin" kimi mətbuat orqanlarının fəaliyyəti məhz Tbilisi ilə, bu qaynar Qafqaz şəhərindəki Azərbaycan mühiti ilə bağlı olmuşdur.

Azərbaycan Mədəniyyət Mərkəzi, Mirzə Fətəli Axundov və Nəriman Nərimanovun ev-muzeyləri, eləcə də, Heydər Əliyev parkı ilə tanış ola bildik. Bundan başqa Nəbatat bağında görkəmli azərbaycanlıların məzarlarını da ziyarət etdim. Xüsusən, ulu öndərin abidəsi önündə foto çəkdirdim.

Məni məmnun edən faktlardan biri də o idi ki, "Sarı gəlin" adlı məşhur xalq mahnımızı Tbilisidə küçə musiqiçiləri məndən dəfələrlə yaxşı oxudular... Kürün sağ sahilindəki Leqvtaxevi dərəsi ilə axan kiçik çayın adını gürcülərdən başqa heç kəs açıq tələffüz edə bilməz... Tsavkisitskali çayı. Dərənin o biri başında həmin çay təxminən 45-50 metr yüksəklikdən tökülür və gözəl şəlalə effekti yaradır.

Həmin şəlaləyə gedən çoxsaylı körpülərdən birinin qurtaracağında gürcü el sənətkarları turistləri musiqi ilə qarşılayırlar. Bizi görən ustalar "türk?",



"türkmən?", "azəri?" – deyə, soruşdular. Dedim: azərbaycanlıyıq. Həmin an böyük peşəkarlıqla "Sarı gəlin"i ifa etdilər. Sonra gözlədim ki, görək, başqa xalqların musiqisini də ifa edə bilirlərmi? Şahidi oldum ki, ukraynalıları da, çinliləri də, rusları da mənim kimi məmnun edə bildilər.

Daha bir fakt. Əsas küçələrin hamısında hər yüz metrdən bir içməli su kranları var. Bir gürcüdən soruşdum ki, bu Kür suyudur? Narazı şəkildə güldü: "Nə danışırsınız? Nataxtaridir". Nataxtari bizim Sirab kimi həm müalicəvi, həm də süfrə suyudur.

Tbilisi heykəllər şəhəridir. Şəhərdə film qəhrəmanlarının (xüsusən, "Mimino"ya), elm, ədəbiyyat və incəsənət adamlarının abidələri ilə yanaşı çoxsaylı məişət məzmunlu heykəllərə də rast gəlmək olur. Hətta, bizim dildə olan tamadaya da heykəl qoyublar. Özü də əlində şərabla dolu buynuz. Bu heykəlin adı gürcü dilində də elə "Tamada" yazılıb. Nə üçün belədir– bilmədim. Bakıya gələndən sonra isə səbəbini internetdə axtardım. Məlum oldu ki, 2006-cı ildə açılışı olmuş bu heykəl Gürcüstan Milli Muzeyinin xristianlıqdan əvvəlki dövr kolleksiyasında saxlanılan və ölkənin qərbindəki Vani arxeoloji abidəsinin tədqiqi zamanı aşkarlanmış bürünc heykəlin böyüdülmüş variantıdır. Üstəlik, öyrəndim ki, həmin heykəlin adı rus dilində də "Tamade" yazılıb.

O ki qaldı, isti münasibət məsələsinə, bu barədə deyilməli söz çoxdur. Yəni orada bizə isti münasibət olmasaydı, yuxarıda adını çəkdiyim görkəmli soydaşlarımız öz tarixi missiyalarını və fərdi potensiallarını reallaşdırmaq üçün Tbilisiyə üz tutmazdılar. Yaxud bizə münasibət bir az sərin olsaydı, Heydər Əliyev parkı və Ümummilli liderimizin heykəli paytaxtın mərkəzindəki "İsti su" mənbəyinin yanında ərsəyə gətirilməzdi.

Oteldə Gürcüstanın hansısa əyalət şəhərindən gəlmiş İrakli ilə söhbət etdik. O, Bakıdan olduğumu biləndə həm sağ əlinin baş barmağını, həm də səsini yuxarı qaldıraraq, sanki hamı eşitsin, deyə danışırmış kimi dedi: "Ooo, Deviçya başnya, Neftyanıe kamni..." Kilsədə görüşdüyüm, ziyalılığı açıq şəkildə "alnına yazılmış" qoca gürcü isə demişdi: "Biz müstəqillik dövründə Azərbaycanın Gürcüstana etdiyi yaxşılıqları heç zaman unutmayacağıq. Mən bunu tələbələrimə də dönə-dönə deyirəm".

***İttifaq MİRZƏBƏYLİ***

# Ürək və sümüklər üçün faydalı 3 qida

**Kifayət qədər kalsium tərkibli qidalar qəbul etmədiyimiz zaman D vitamini, maqnezium və kalsium çatışmazlığı kimi sağlamlıq problemləri ilə üzləşirik.**



Kalsium çatışmazlığı özünü sümüklərin zəifləməsi, dırnaqlarda deformasiya və qırıqlar, quru dəri, əzələ ağrıları və kramplar, tetaniya, qismən və ya ümumi epileptik tutmalar, ağız ətrafında və barmaqlarda uyuşma kimi əlamətlərlə göstərir.

Uşaqlarda diş çürüməsi, yuxu problemləri, tez-tez xəstələnmək, kəllədaxili təzyiqin artması, zehni durğunluq, əsəbilik, aşağı intellektual qabiliyyət, narahatlıq və səyyiyyət pozğunluqları, depressiya və psixoz vəziyyət də kalsium çatmazlığındandır. Eyni zamanda, kalsium azlığı olanlar çəki itirməkdə çətinlik çəkir, katarakt və görmə pozuntuları ilə qarşılaşırlar.

Bədənin gündəlik ehtiyac duyduğu kalsium miqdarı yaşa, cinsə, fiziki fəaliyyət səviyyəsinə və digər amillərə görə dəyişə bilər. Ümumiyyətlə, mütəxəssislər 19–50 yaş üçün orta gündəlik kalsium miqdarının 1000 milliqram olduğunu söyləyirlər.

Sümük sağlamlığını dəstəkləmək və qorumaq üçün kalsium miqdarını artırmaq lazım ola bilər. Xüsusilə inkişaf etməkdə olan uşaqlarda və yaşlılarda kalsiuma ehtiyac daha yüksək olur.

Ürək sağlamlığı üçün də vacib olan kalsiumla zəngin noxud yüksək bitki zülalı və pəhriz lifləri ilə diqqət çəkir. Noxud antioksidant təsirləri ilə xəstəliklərlə mübarizə aparır və kalsium ehtiyacını qarşılamaq üçün veqan qidalanma proqramlarında mühüm yer tutur.

Kalsiumun ən əhəmiyyətli qaynağı süddür və onun müntəzəm istehlakı sümük sağlamlığı üçün çox vacibdir. Bədən tərəfindən effektiv şəkildə mənimsənilməsi üçün D vitamini ilə birlikdə kalsium qəbul etmək vacibdir. Ona görə də süd və ya digər kalsium tərkibli qidalarla D vitamini qəbul etməyə diqqət etmək lazımdır.

Kalsium baxımından çox zəngin olan küncüt kalsium ehtiyacını qarşılamaq üçün əla seçimdir.

***Z. HÜSEYNLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 164 (30568) 4 avqust 2024-cü il, bazar

# “Paris-2024”: Yığmamız medallar uğrunda mübarizəni davam etdirir

## Boksçumuz finala vəsiqə qazana bilər



**Paris Yay Olimpiya Oyunlarında indiyədək 3 medal əldə edən yığmamızın mükafatlar uğrunda mübarizəsi davam edir.**

Olimpiadada debüt edən Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisi dünən son oyununda Kanada seçməsi ilə qarşılaşıb. Oyun millimizin məğlubiyyəti ilə başa çatıb. Komandamız qrupda 7-ci yeri tutub və bununla da olimpiadada çıxışını dayandırıb.

Qeyd edək ki, millimiz ilk İspaniya yığmasına məğlub olsa da, sonrakı qarşılaşmada ABŞ milli komandasını 20-17 hesabı ilə məğlub edib. Fransa və Avstraliya, Almaniya milliləri ilə matç isə komandamız üçün uğurlu alınmayıb. Qızlarımız Çin komandasına qarşı inamlı oyun sərgiləyiblər. Qarşılaşma millimizin 21:19 hesablı qələbəsi ilə başa çatıb.

Avqustun 3-də üzgüçü Məryəm Şeyxəlizadəxangah 50 metr məsafəyə sərbəst üsulla üzmə yarışının təsnifat mərhələsində çıxış edib. 6-cı qrupda finişə 26,76 saniyəyə çatan üzgüçümüz həmin “səkkizlik”də 3-cü yeri tutub. Ümumilikdə isə 79 idmançı arasında ən yaxşı nəticəyə malik 16 üzgüçü yarımfinala adlayıb. Onların arasına düşə bilməyən idmançımız Olimpiadada çıxışını başa vurub.

Azərbaycan avarçəkəni Diana Dımçenko da Oyunlarda çıxışını dayandırıb. Belə ki, dünən 2000 metr məsafəyə fərdi avarçəkmədə C finalında yarışan təmsilçimiz finişə 5-ci çatıb. O, yekunda 17-ci yeri tutub. Diana məsafəni 7 dəqiqə 35,19 saniyəyə qət edib.

Bu gün boksçumuz finala vəsiqə qazana bilər. Yarışa 1/8 final mərhələsindən start verən təmsilçimiz Alfonso Dominqes ilk görüşündə ən çətin rəqiblərdən biri, kubalı 2 qat Olimpiya çempionu Xulio Sezar la Krusu məğlub edib. 1/4 final çərçivəsində Aybek Oralbayı (Qazaxıstan) məğlub etməklə yarımfinala yüksələn rinq ustamız, bu nəticə ilə azı bürünc medalı təmin edib.

A.Dominqes Tokio Olimpiadasında bürünc medal qazanıb. 2021-ci ildə isə Belqradda keçirilən dünya çempionatının qalibi olub. Son dünya çempionatının gümüş mükafatçısıdır. Onun finalda mübarizə aparacağı Enmanuel Reyes Pla (İspaniya) Kuba əsilli boksçudur. Dünya çempionatının bürünc mükafatçısıdır. Ötən il Avropa Oyunlarında da 3-cü yeri tutub.

Olimpiadalar tarixində qazandığımız 9 medalın 8-i bürünc, yalnız 1-i gümüş medal olub. Gümüş medalı “Rio-2016”da əldə etmişik. Boksçumuzun finala yüksəlməsi üçün böyük şansları var.

Bu gün həmçinin, atletika üzrə Anna Skidan mübarizəyə qoşulacaq. Azərbaycan təmsilçisi atletika üzrə dünya çempionatında çəkicatma üzrə təsnifat mərhələsində uğurla çıxış etməklə Paris Oyunlarına lisenziya qazanıb.

Onu da qeyd edək ki, bu, Anna Skidanın iştirak etdiyi 3-cü olimpiada olacaq. O, “Rio-2016” və “Tokio-2020”də mübarizə aparıb.



Xatırladaq ki, hazırda Azərbaycanın aktivində üç medal var. Cüdoçularımız Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) böyük uğurla çıxış edərək qızıl medal qazanıblar. 3-cü mükafatı isə Alfonso Dominqes yarımfinala vəsiqə qazanmaqla əldə edib.

## Makron “Paris-2024”ün açılışını Fransanın “siması” hesab edirsə...

***Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Fransa prezidenti Emmanuel Makron Parisdə Olimpiya Oyunlarının açılışını Fransanın “siması” hesab edirsə, bunu, o, daha yaxşı bilər.***



TASS agentliyinin məlumatına görə, diplomat bu barədə Telegram kanalında bildirib. M.Zaxarova yazıb:

–Çoxları bunun başqa bir şey, bədənin bəzi digər hissələri olduğunu düşünürdü. Lakin Makron Fransanın indi belə bir sifətə sahib olmasında israr etdiyinə görə, o, əlbəttə ki, daha yaxşı bilir.

Qeyd edək ki, Parisdə Olimpiya Oyunlarının açılış mərasimi cəmiyyətin və dini liderlərin hiddətinə səbəb olub. Qalmaqala səbəb Leonardo da Vinçinin “Son şam yeməyi” əsərinin parodiyası olub. Olimpiadanın təşkilat komitəsi tənqidlərə cavab olaraq üzr istəyib və bu kompozisiyanın heç bir dini qrupu təhqir etmək niyyəti daşımadığını vurğulayıb.

## Olimpiadada evlilik təklifi

***Çinli badmintonçu Huan Yatsyun Paris Oyunlarında qalib gəldikdən sonra evlilik təklifi alıb.***



Medallar təqdim edildikdən sonra onun sevgilisi Li Yuyçen Huan Yatsyuna yaxınlaşaraq minlərlə insanın qarşısında ona evlilik təklifi edib. İdmançı “bəli” deyib.

Qeyd edək ki, Yuyçen də həmçinin Paris Olimpiadasında iştirak edib. O, kişilər arasında cütlükdə çıxış edib və yarışın pley-off mərhələsinə keçə bilməyib. Çinli “Tokio-2020” Oyunlarının gümüş mükafatçısıdır.

## Oyun vaxtı işıq sönüb

**Paris Olimpiya Oyunlarında voleybol turnirinin qrup mərhələsi qeyri-adi hadisə ilə yadda qalıb. ABŞ və Yaponiya komandaları arasında gərgin keçən qarşılaşma zamanı qəfildən oyun arenasında işıqlar sönüb.**



İlk oyunda hesab 2:1 Amerika komandasının xeyrinə olanda kuryoz vəziyyət yaranıb. İdmançılar və tamaşaçılar çaşqınlıq və təəccübə səbəb olan tam qaranlıqda qalıblar. İki dəqiqədən sonra işıqlandırma problemi aradan qaldırılıb.

Gözlənilməz fasiləyə baxmayaraq, voleybolçular konsentrasiyanı itirməyərək mübarizəni davam etdiriblər. Nəticədə ABŞ komandası rəqib üzərində 3:1 hesabı ilə inamlı qələbə qazanıb.



## Misir idmançıları hicabın qadağan olunmasını tənqid ediblər

**CNN bildirir ki, Misirin qadın çimərlik voleybolu komandasının üzvləri Fransanın idmançılarının hicab geyinməsinə qadağa qoymasını tənqid ediblər.**

Misir yığmasını Oyunlarda Mərva Abdelhadi və Doaa Elqobaşi təmsil edib. Onlar yarışa qara qolsuz köynək və topuğa qədər qara şalvar geyiniblər.

“Çılpaq olmaq və ya hicab taxmaq fərqi yoxdur. Sadəcə, fərqli mədəniyyətlərə və dinlərə hörmət edin”, – Elqobaşi bildirib.

## Tomas Bax transgender qalmaqalına görə tənqidləri qəbul etmir

**Beynəlxalq Olimpiya Komitəsinin (BOK) rəhbəri Tomas Bax 2023-cü ildə gender testindən keçə bilməyən, lakin yarışa buraxılan əlcəzairli boksçu İman Həlifin tənqidini qəbuledilməz adlandırıb.**



“Biz müəyyən fikirləri dinləməyə hazırıq. Amma biz siyasi motivli mədəniyyət müharibəsinə girməyəcəyik. Bu gündəm tamamilə qəbuledilməzdir”, - Bax deyib.

Xatırladaq ki, avqustun 1-də italiyalı boksçu Angela Karini 47 saniyədə İman Həlifə qarşı döyüşünü davam etdirməkdən imtina edib. Onun sözlərinə görə, rəqibi tərəfindən vurulandan sonra burnunda şiddətli ağrılar hiss edib, müvazinətini itirib və nəfəs almaqda çətinlik çəkib. Avqustun 2-də Karini idman karyerasını bitirdiyini elan edib.

Həlif bir il əvvəl Hindistanda keçirilən Dünya Çempionatında gender testindən keçə bilməyib. Həmçinin Tayvan təmsilçisi Lin Yutinq də həmin çempionatda analoji sınaqdan keçməyib. Daha sonra BOK hər iki idmançının Oyunlarda iştirakını təsdiqləyib.

## “Paris-2024” neçəyə başa gəlir?




**Fransanın Dövlət İdarəçilik və Siyasət Araşdırmaları İnstitutu Paris Olimpiadasının xərclərini açıqlayıb.**

Xərclər nəzərdə tutulan 9 milyard avrodan 11 milyard avroya qədər artıb.

“Sena çayının təmizlənməsi, açılış mərasiminin təmin edilməsi xərcləri və bonuslar əlavə olunarsa, ümumilikdə 11 milyard avro olur”, - deyə açıqlamada bildirilir.

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA*
*XQ*



## Paris-2024: Cüdoçu rəqiblər arasında 62 kq fərq

**“Paris-2024”də maraqlı hadisə baş verib. Cüdo üzrə qarışıq komanda yarışında keçirilən 1/4 final görüşündə Fransa Cənubi Koreya ilə üz-üzə gəlib.**

145 kiloqram çəkidə cüdo əfsanəsi Teddi Riner asiyalı Cun-Xvan Li ilə qarşılaşıb. “Ekip” nəşri qarşılaşma vaxtı onlar arasında çəki fərqinin 62 kiloqram olduğunu açıqlayıb. Riner özündən xeyli yüngül – 83 kiloqram çəkidə mübarizə aparan koreyalı rəqibinə qalib gəlməkdə çətinlik çəkməyib.

## Yenə də Aranda yağmursuz, dağlarda yağıntı və duman



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 4-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.***

Əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 21-26° , gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 70-75 , gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 32-37°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3401
SİFARİŞ 1688
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00